www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 iyul 2018-ci il Cümə axşamı № 154 (7043) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakı-Quba yolunda daha bir avtobus qəzası - ölən və yaralananlar var**

yazısı səh.2-də

**Gündəm**

**"Əminik ki, İtaliya Qarabağ münaqişəsinin həllində fəal rol oynayacaq"- prezident İlham Əliyev**



İtaliya prezidenti: "Biz Azərbaycanı bu regionda əsas tərəfdaş hesab edirik"

yazısı səh.3-də

**Gəncə tətikçisini "el qəhrəmanı" edənlərin məqsədi...**

yazısı səh.11-də

**Olimpiya kompleksləri MMC-yə çevrilir - səbəb...**

yazısı səh.4-də

**Sosial yardım üçün elektron müraciət proseduru sadələşdirilir**

yazısı səh.6-da

**ABŞ-la Rusiya "mehriban düşmən"ə çevrilir**

yazısı səh.9-da

**ATƏT 11 aprel prezident seçkiləri ilə bağlı yekun hesabatını açıqladı**

yazısı səh.2-də

**Saxta dindarları kim və necə müəyyənləşdirir...**

yazısı səh.10-da

**Qarabağda daimi sülhün klassik və dəyişməz şərti**

yazısı səh.13-də

**Tramp NATO-nu dağıda bilərmi - ekspertin şərhi**

yazısı səh.12-də

**Son 5 ildə 5,2 milyard manatlıq vergi güzəştləri tətbiq olunub - nazirlik**

yazısı səh.2-də

**Adnan Oktar dosyesi- İsrail agenti, masson, şizofren xəstəsi...**

yazısı səh.14-də

# ABŞ-IN YENİ QARABAĞ PLANI - AĞ EV BAKINI İRƏVANLA BARIŞDIRIR?

İran ətrafında daralan mühasirə Qarabağ məsələsini keyfiyyətcə yeni müstəviyə daşıya bilər; Trampın İlham Əliyevə mesajı və fransız analitikdən ilginc iddia; gələn həftə Putin Paşinyanı yenidən "xalça üzərinə" çağıracaq...



yazısı səh.8-də

## Vitse-spikerdən Gəncə olayları ilə bağlı ilginc açıqlamalar

Bahar Muradova: "Bu, Azərbaycana mesaj verməkdir ki, sizin ən çox inkişaf etmiş saydığınız regionunuzda belə, problem yarada bilərik"

yazısı səh.5-də



**Aslan İsmayılov indi də toyuq davasına başladı - ətin qiymətini müxbirlər qaldırırmış...**

yazısı səh.4-də



*Vüqar Bayramov:*

**"Yeni neft şoku baş verə bilər"**

yazısı səh.6-da



**Sülhəddin Əkbərdən Azərbaycanda baş verənlərlə bağlı "Rusiya izi" təhlili**

yazısı səh.7-də

**19 iyul 2017**

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018




## ATƏT 11 aprel prezident seçkiləri ilə bağlı yekun hesabatını açıqladı

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) Azərbaycanda keçirilmiş prezident seçkilərinin nəticələri ilə bağlı yekun hesabatını açıqlayıb.**

APA-nın məlumatına görə, nəticələrlə bağlı ilk rəy seçkilərdən bir gün sonra - aprelin 12-də elan olunub.

Yekun hesabatda bildirilir ki, seçki qanunvericiliyi növbəti seçkilərdən əvvəl beynəlxalq standart və öhdəliklərə uyğunlaşdırılmalı, Konstitusiya ilə qorunan hüquq və azadlıqlar təmin edilməli, qanunvericilikdəki boşluq və qeyri-müəyyənliklər aradan qaldırılmalıdır: "Qərəzsizliyi və seçki işlərinə olan etimadı artırmaq məqsədilə seçki komissiyalarının tərkibində dəyişiklik edilməlidir".

Hesabatda seçici siyahısının yoxlanılması, toplantılar keçirmək üçün lazımsız məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tövsiyələr də yer alıb.

Qeyd edək ki, ATƏT/DTİHB-nin seçki müşahidə missiyası martın 9-dan Azərbaycanda fəaliyyətə başlayıb. Missiyanın rəhbəri Koryen Yonker olub. Seçki prosesini izləmək üçün 30 uzunmüddətli və səsvermə gününü izləmək üçün 280 müşahidəçi Bakıya gəlib.

Azərbaycanda prezident seçkiləri aprelin 11-də keçirilib.



## Bakı-Quba yolunda daha bir avtobus qəzası - ölən və yaralananlar var

**Bakı-Quba yolunda avtobusla minik maşını toqquşub. APA-nın şimal bürosunun verdiyi məlumata görə, hadisə magistralın İsnovqışlaq kəndi ərazisində qeydə alınıb. "Nissan X trail" markalı minik maşını ilə "Hyundai" markalı sərnişin avtobusunun toqquşması nəticəsində minik maşınının sürücüsü hadisə yerində ölüb.**

İlkin məlumata görə, "Nissan" markalı avtomobil ötmə əməliyyatı zamanı avtobusa çırpılıb.

Avtobusla minik maşınının toqquşması nəticəsində xəsarət alanlardan 6 nəfər Quba Mərkəzi Rayon Xəstəxanasına, 2 nəfər isə Quba Müalicə Diaqnostika Mərkəzinə yerləşdirilib.

APA-nın FHN-in saytına istinadən verdiyi məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Şabran rayonunun Günəşli kəndində "Nissan" markalı minik avtomobili və "Hyundai" markalı sərnişin avtobusu toqquşub.

Hadisə yerinə cəlb olunmuş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq xilasetmə qüvvələri minik avtomobilində sıxışmış vəziyyətdə qalmış sürücü, 1992-ci il təvəllüdlü Bayramov Məmmədəli Əkbər oğlunun meyitini deformasiyaya uğramış nəqliyyat vasitəsindən çıxarıb və aidiyyəti üzrə təhvil veriblər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Müəllimlərin işə qəbulu imtahanı media və ictimaiyyətin nəzarəti altında keçirildi

**İyulun 18-də Azərbaycan Texniki Universitetinin İdman Kompleksində müəllimlərin ümumi təhsil müəssisələrinə işə qəbulu üzrə imtahanın növbəti mərhələsi keçirilib. Nazirliyin təşəbbüsü ilə bu proses ictimaiyyət və media təmsilçilərinin nəzarəti altında keçirilib.**





Musavat.com-un məlumatına görə, öncə təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, millət vəkilləri, media qurumlarının rəhbərləri və təhsil ekspertlərinin iştirakı ilə çay süfrəsi arxasında təhsil sahəsində yeniliklər, gələcək perspektivlərlə bağlı geniş müzakirələr aparılıb.

Sonra mətbuat rəhbərləri və KİV nümayəndələri, millət vəkilləri, təhsil ekspertləri Azərbaycan Texniki Universitetinin idman zalında imtahanın gedişatını yaxından izləyiblər. Qeyd edək ki, zalda imtahanın yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb. Şəbəkə mühiti, zalın uyğun temperaturu, nəzarətçilərin həssas münasibəti bunu bir daha təsdiq edir. Müxbirimiz onu da müşahidə edib ki, imtahan zalında müdaxilə etməyə hazır olan təcili yardım həkimlərindən ibarət tibbi personal da növbə çəkib.

**M.Vəliyeva gələn qonaqlara imtahanla bağlı məlumat verib:** "İki həftə ərzində keçiriləcək imtahanda 46 mindən çox namizəd öz biliyini sınayacaq. Bu il 50 mindən çox namizəd müəllim olmaq üçün elektron qeydiyyatdan keçib. Bu da digər illərə baxanda rekord göstərici sayılır. Gün ərzində 4 sessiyadan ibarət olan imtahanda 3 min nəfərdən çox müəllim iştirak edir. Birinci mərhələdə onlar 90 dəqiqə ərzində 60 sualı cavablandıracaqlar".

Musavat.com-un müxbiri müşahidə edib ki, imtahanlar şəffaf mühitdə keçirilir, nəzarətçilər hətta kompüterlərin açılması, "maus"un işləməsi kimi, sadə məsələləri bilməyən bəzi müəllim iddiaçılarına səbrlə bunları başa salır, hər cür köməklik edirlər.

**Elçin ƏKBƏROV, Musavat.com**

# Son 5 ildə ümumilikdə 5,2 milyard manatlıq vergi güzəştləri tətbiq olunub

**2017-ci ildə Azərbaycanda vergi güzəştləri tətbiq olunan vəsaitlərin ümumi məbləği 1 milyard 263,2 milyon manat təşkil edib.**



"APA-Economics" Vergilər Nazirliyinə istinadən xəbər verir ki, ötən il vergi güzəşti və azadolmaların strukturunda birinci yeri gəlir vergisi tutub. Belə ki, ötən il 437,5 milyon manat məbləğində gəlir vergisinə güzəşt tətbiq olunub ki, bu da ümumi azadolmaların 35 faizini təşkil edib. Sonrakı yerləri 26 faizlə mənfəət vergisi (324,3 milyon manat), 21 faizlə ƏDV (265 milyon manat), 10 faizlə əmlak vergisi (134,4 milyon manat) və 8 faizlə sadələşdirilmiş vergi (102 milyon manat) tutur.

"2017-ci ildə vergi güzəşti və azadolmalarından istifadə edənlərin 92,2 faizi fiziki şəxslərdir. Sadələşdirilmiş vergidən azad olunanların sayı 29 min 582, əmlak vergisindən azad edilənlər 2656, ƏDV-dən azad edilənlər 650, mənfəət vergisindən azad edilənlərin sayı isə 213 olub. Qeyd edək ki, kənd təsərrüfatı sektoru və əmanət faizləri üzrə gəlirlərdən azadolmalar bu statistikaya aid edilməyib", - deyə məlumatda vurğulanıb.

**Nazirlikdən bildirilib ki, 2017-ci ilin vergi güzəşti və azadolmalarının bəyannamələrdə əks olunması vəziyyəti üzrə rəqəmlər göstərir ki, dövlətin verdiyi bu imtiyazlardan istifadə edənlərin təxminən yarıya qədəri aldığı güzəşti bəyannamələrdə düzgün göstərməyib:** "Məsələn, gəlir vergisi üzrə bəyannamədə əks edilməli güzəşt və azadolmaların sayı 45 olsa da, bəyannamədə onlardan yalnız biri haqqında məlumat verilir. Mənfəət vergisində bu göstərici, müvafiq olaraq, 18-ə qarşı 17, əmlak vergisində 11-ə qarşı 10, torpaq vergisində 7-yə qarşı 3, sadələşdirilmiş vergidə 4-ə qarşı 2 olub. Bu sırada yalnız ƏDV üzrə ödəyicilər bəyannamə tələblərinə əməl ediblər: bu vergi növü üzrə güzəşt və azadolmalardan istifadə edənlər bəyannamədə əks olunmalı güzəşt və azadolmaların sayını tam şəkildə göstərib. Ümumilikdə isə vergi bəyannamələrində məlumat verilməli 108 güzəşt və azadolma barədə növ olmasına baxmayaraq, onlardan yalnız 56-sı, yəni cəmi 51,9 faizi vergi bəyannamələrində əksini tapıb. Azadolmaların 42,4 faizi, güzəştlərin isə 69,6 faizi bəyannamələrdə əks olunmayıb".

**Son 5 ildə vergi güzəştləri və azadolmaların dinamikasına nəzər saldıqda məlum olur ki, həmin vəsaitlərin ümumi məbləği ildən-ilə artır:** "Beləliklə, son 5 ildə dövlət büdcəsi vergi güzəştləri və azadolmalardan 5 milyard 239 milyon 300 min manat itirib. Ən aşağı göstərici 2013-cü ildə (859,5 milyon manat), ən yüksək göstərici isə 2017-ci ildə (1 milyard 263,2 milyon manat) qeydə alınıb".



## Gəncə olayı ilə bağlı həbs edilənlərdən biri baş redaktoru hədələyirmiş

**Gəncə olayları ilə bağlı həbs edilənlərdən biri illər öncə "Cümhuriyyət" qəzetinin baş redaktoru Rəfail Becanovu təhqir edərək, hədələyib. Baş redaktor bu barədə keçirilən tədbirlərin birində açıqlayıb.**

Baş redaktoru hədələyən konkret kim olub? Rəfail Becanov həmin şəxs barəsində şikayətçi olacaqmı? Olaya səbəb nə olub?

Məsələ ilə bağlı Rəfail Becanov "Yeni Müsavat"a danışıb. Baş redaktor qeyd edib ki, konkret olaraq həmin şəxs barəsində heç bir şikayəti yoxdur: "2015-ci ilin noyabrında sosial şəbəkədə Elçin Qasımov adlı istifadəçinin adından "polis idarələrini, maşınlarını yandırın, daşlayın" deyə çağırışlar edilmişdi. Bizim qəzet və saytımız bu məsələni ictimailəşdirdi, hesab etdik ki, bu təhlükəli çağırışdır. Hətta məsələ ilə bağlı hüquqşünas Mehman Muradlıdan müsahibə aldıq. Yazımızdan sonra sosial şəbəkələrdə təhqir və təhdid olunmağa başladıq.

Qeyd edim ki, adıçəkilən Elçin Qasımov "Müsəlman Birliyi Hərəkatı" təşkilatının sədr müavini kimi təqdim olunurdu. O, 2015-ci ilin noyabrında Sabunçu rayonu ərazisində ictimai qaydanı pozan xırda xuliqanlıq hərəkətlərinə yol verdiyinə və polisə müqavimət göstərdiyinə görə saxlanılaraq 30 sutka həbs edilmişdi. Bundan sonra sosial şəbəkələrdə onun profili vasitəsilə polislərə qarşı təhlükəli çağırışlar olmuşdu.

Beləliklə, biz bu məsələni ictimailəşdirdiyimizə görə qəzet və saytımız, o cümlədən şəxsən mən təhdid və təhqirlərə məruz qaldıq. Biz bunlar sosial şəbəkələrdə baş verdi, biz bunu informasiyaya çevirmədik. Onların arasında xüsusən özünü dindar kimi qələmə verən Samir İbrahimov adlı şəxs fəallıq göstərir, qəzetimizin müxtəlif şəkillərini yayıb, təhqir edirdi.

Bildirim ki, yazılarımızda söhbət onların dindar olmasından deyil, radikal hərəkətlərindən, təhlükəli çağırışlarından gedirdi".

Xatırladaq ki, Samir İbrahimov bu ilin 10 iyul tarixində Gəncə şəhərində törədilən cinayətlərlə bağlı həbs edilib. O, gecə saatlarında Azərbaycan - Gürcüstan sərhədini Qazax rayonu ərazisindən keçmək istəyərkən saxlanılıb.

**Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018

# "İtaliya Azərbaycanı bu regionda əsas tərəfdaşı hesab edir"

## İlham Əliyev: "Əminik ki, İtaliya Qarabağ münaqişəsinin həllində fəal rol oynayacaq"
## Sercio Mattarella: "Radikalizmdən doğan təhlükələrə qarşı Azərbaycanın gördüyü işləri İtaliya tərəfi dəstəkləyir"

**İtaliya prezidenti Sercio Mattarella Azərbaycana rəsmi səfərə gəlib. APA-nın xəbərinə görə, rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin Sercio Mattarella ilə təkbətək görüşü olub.**



Görüşdə Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb. Sercio Mattarellanın Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatandan sonra İlham Əliyevin və Sercio Mattarellanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra İlham Əliyev və Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

**"İtaliya hazırda ATƏT-in sədridir. Biz ümid edirik və əminik ki, İtaliya ATƏT-in sədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacaq".**

**Bunu prezident İlham Əliyev italiyalı həmkarı Sercio Mattarella ilə görüşdən sonra keçirilən brifinqdə deyib.**

"Mən cənab prezidenti münaqişə ilə bağlı məlumatlandırdım, danışıqların hazırkı vəziyyəti ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapsın. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayır. Xalqımıza qarşı hərbi cinayətlər törədilib. İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz məhv edilib. ATƏT işğal edilmiş bölgələrə iki dəfə faktaraşdırıcı missiya göndərib. Bu missiyaların məruzələrində göstərilir ki, bütün tarixi abidələrimiz, infrastruktur obyektləri Ermənistan tərəfindən dağıdılıb. Münaqişənin həlli üçün hüquqi əsas var. BMT Təhlükəsizlik Şurası 25 il bundan əvvəl 4 qətnamə qəbul edib. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrin icrası təmin edilməlidir. Əfsuslar olsun ki, Ermənistan uzun illərdir bu qətnamələrə məhəl qoymur, öz işğalçı siyasətini davam etdirir və status-kvonu saxlamaq istəyir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk Qrupunun həmsədr ölkələri prezidentlər səviyyəsində dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bu mövqeyi dəstəkləyirik və hesab edirik ki, tezliklə münaqişənin həlli üçün addımlar atılmalıdır, Ermənistanın işğalçı qüvvələri bizim tarixi torpaqlarımızdan çıxarılmalıdır", - deyə o vurğulayıb.



**Dövlət başçısı qeyd edib ki, bir həftə bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlığın prioritetləri" sənədində də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına bir daha Aİ tərəfindən dəstək göstərilib:** "Bir gün ondan sonra NATO Zirvə görüşünün nəticəsində qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dəstəklənib. Yəni heç kəs üçün sirr deyil ki, Ermənistan bizim tarixi torpaqlarımızı qanunsuz yollarla zəbt edib və bu torpaqlardan çıxmalıdır. Ancaq bundan sonra bölgədə sülh, əməkdaşlıq ola bilər və ancaq bundan sonra Cənubi Qafqazda geniş miqyasda əməkdaşlıq aparıla bilər".

"Bu səfər İtaliya prezidentinin Azərbaycana ilk səfəridir. Bu səfər tarixi bir səfərdir. Mənim dəvətimi qəbul etdiyiniz üçün sizə minnətdaram. Əminəm ki, səfər çox uğurlu keçəcək və İtaliya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcək. Bizim əlaqələrimiz çoxşaxəlidir, bir çox sahələri əhatə edir. Bu gün apardığımız danışıqlarda, keçirdiyimiz görüşlərdə bir çox məsələlər müzakirə edildi. Regional inkişaf və regional təhlükəsizlik məsələləri, Avropa İttifaqı-Azərbaycan əlaqələri, siyasi, iqtisadi ikitərəfli əlaqələrimiz - bir çox məsələlər müzakirə edildi və deyə bilərəm ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür".

Bunu da prezident İlham Əliyev italiyalı həmkarı Sercio Mattarella ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

"Bu gün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. İtaliyanın bu məsələlərlə bağlı çox müsbət rolu və mövqeyi var. Ümid edirəm ki, yaxın gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq. Saziş üzərində iş aparılır və biz Avropa İttifaqına üzv ölkələrlə strateji tərəfdaşlıq bəyannamələri imzaladıq, qəbul etdik. Doqquz ölkə ilə, o cümlədən İtaliya ilə belə bəyannamələr qəbul edildi. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə qəbul edilib. Bu, çox ciddi siyasi sənəddir, əslində bizim bir-birimizə olan münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir. O ki qaldı ikitərəfli əlaqələrə, qeyd etdiyim kimi, biz strateji tərəfdaşıq, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və İtaliya prezidentinin Azərbaycana rəsmi səfəri bunun bariz nümunəsidir. İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır. Azərbaycan böyük həcmdə neftini İtaliya istiqamətinə göndərir, enerji sahəsində çox gözəl əməkdaşlıq var. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq dərinləşəcək. Azərbaycan tərəfdaş ölkələrlə birlikdə hazırda "Cənubi Qaz Dəhlizi" layihəsini uğurla icra edir. Bu, 40 milyard dollar dəyərində olan layihədir, onun böyük hissəsi icra edilib. Bu il Cənub Qaz Dəhlizinin rəsmi açılışı Bakıda olub. Onun böyük hissəsini təşkil edən TANAP layihəsinin Əskişəhər şəhərində açılışı olub. Yəni, bu istiqamətdə işlər uğurla gedir və bu, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayır", - deyə o vurğulayıb.

**İ. Əliyev qeyd edib ki, İtaliya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir:** "Bu gün açılacaq polimer zavodunun inşasında İtaliya şirkəti fəal iştirak edib. Azərbaycanda bir çox İtaliya şirkətləri fəaliyyət göstərir. Biz bu gün bu məsələ ilə bağlı da danışdıq və mən prezident Mattarellaya dedim ki, İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır, biz onların səviyyəsini bilirik, onlar çox yüksək texnologiyaya malik olan şirkətlərdir. Azərbaycanda inşaat sektorunda, kənd təsərrüfatı sahəsində, ağır sənaye sahəsində bir çox layihələr icra ediblər və çox yüksək səviyyədə icra ediblər. Əlbəttə ki, keçirilən görüşlər və sabah (bu gün-red.) iştirak edəcəyimiz İtaliya-Azərbaycan biznes forumu qarşımızda yeni imkanlar açacaq. Çünki Azərbaycanın sürətli iqtisadi-sənaye inkişafı tələb edir ki, yeni texnologiyalar gətirilsin. Əlbəttə ki, ilk növbədə, biz bu texnologiyaları dost ölkələrdən gətirmək, əldə etmək istərdik. Biz cənab Prezident Sercio Mattarella ilə mədəniyyət, təhsil sahələrindəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq və danışıqların sonunda belə bir qərara gəldik ki, bu gün gündəlikdə olan məsələlərlə bağlı bizim heç bir fikir ayrılığımız yoxdur. Bütün məsələlərlə bağlı fikirlərimiz üst-üstə düşür. Azərbaycan İtaliya üçün, İtaliya Azərbaycan üçün çox etibarlı tərəfdaşdır. Əminəm ki, bu səfərdən sonra əlaqələrimiz daha da möhkəmlənəcək və bundan sonra uzun illər ərzində biz çox səmərəli əməkdaşlıq edəcəyik. Cənab prezident, Sizi və bütün nümayəndə heyətini Azərbaycanda bir daha salamlayıram, xoş gəlmisiniz".

**Daha sonra çıxışında İtaliya prezidenti deyib:** "Mənə və məni müşayiət edən nümayəndə heyətinə göstərilən diqqətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Eləcə də bu gün keçirdiyimiz təkbətək və geniş tərkibdə görüşlərə və orada deyilən sözlərə görə də Sizə bir daha təşəkkür edirəm. Bildiyiniz kimi, mən İtaliyanın Azərbaycana səfər edən ilk prezidentiyəm. Mən bundan çox böyük məmnunluq duyuram. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Azərbaycana gəlmişəm və dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Bu dəvət və bizim münasibətlərimiz ölkələrimiz arasında mükəmməl səviyyədə olan ikitərəfli əməkdaşlığımızın nəticəsidir. Bizim bu gün gündəliyimizdə olan məsələlər ikitərəfli münasibətlərimizi nəzərdə tutan bütün sahələri diqqətdə saxlayan məsələlərdir. Çünki İtaliya da Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab edir və xüsusilə də bu regionda əsas tərəfdaşı hesab edir. İtaliya qlobal səviyyədə də Azərbaycan ilə əməkdaşlığa əhəmiyyət verir. İtaliya Azərbaycanın dünyəviliyini və dini tolerantlığa olan hörmətini çox alqışlayır".

**O qeyd edib ki, radikalizmdən doğan təhlükələrə qarşı Azərbaycanın gördüyü işləri İtaliya tərəfi dəstəkləyir:** "Biz söhbətlərimiz zamanı eləcə də terrorizmə və qeyri-qanuni ticarət yollarına qarşı mübarizəyə dair də fikir mübadiləsi apardıq və eyni fikirdəyik. Bizim strateji və kommersiya sahəsində olan əməkdaşlığımız barədə də geniş fikir mübadiləsi apardıq. Bizim enerji sahəsi üzrə mükəmməl əməkdaşlığımızdan əlavə digər sahələr üzrə də əməkdaşlığımızın mümkünlüyündən və onların önəmindən danışdıq. İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyətindən danışdıq. Cənub Qaz Dəhlizində İtaliya tərəfinin və Azərbaycan tərəfinin səylərini qiymətləndirir və ümumi maraqlarda olan bu məsələlərin həll yolunu tapması üçün hər iki tərəfin çalışacağını bildirirık. Çünki Cənub Qaz Dəhlizi və eləcə də Xəzər dənizi regionu, Xəzər dənizinin qazı Avropa üçün çox önəmlidir. İtaliya Azərbaycanın öz iqtisadiyyatını şaxələndirməsinə çox böyük önəm verir və bunu alqışlayır. Biz ümid edirik ki, bu sahə üzrə və dostluq münasibətləri çərçivəsində İtaliya şirkətləri Azərbaycanda energetika sahəsindən başqa digər sahələrdə də öz fəaliyyətini qura bilər. Bundan əlavə, biz müdafiə sahəsində şirkətlərimizin əməkdaşlığı barədə danışdıq. Çünki biz inanırıq ki, İtaliyanın bu sahədə əldə etdiyi texnologiyalar Azərbaycanın iqtisadiyyatına öz töhfəsini verə bilər".

**O qeyd edib ki, bizim münasibətlərimiz siyasi, iqtisadi, energetika baxımından təbii ki, ən əhəmiyyətli rola malikdir:** "Lakin bundan əlavə, Azərbaycanla İtaliya arasında mədəniyyət sahəsində də əməkdaşlıq mövcuddur. Biz fikirləşirik ki, elmin və texnologiyanın hesabına hər iki dövlət arasında mədəniyyət sahəsində olan əməkdaşlığı inkişaf etdirə bilərik...

Bizim Azərbaycanla ikitərəfli və çoxşaxəli münasibətlərimiz, bir az bundan öncə imzaladığımız sazişlərlə də bir daha özünü sübut edir. Mən demək istəyirəm ki, İtaliya tərəfi ATƏT-də sədrliyi çərçivəsində də Azərbaycana öz töhfəsini verəcəyini bir daha vurğulayır. İtaliya xüsusən regionda olan problemlərlə bağlı, həmçinin Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı ATƏT-ə sədrlik çərçivəsində öz dəstəyini göstərəcək. Biz istəyirik ki, bu sahə üzrə danışıqların formatlarını dəyişmək əvəzinə, əksinə, regionda təhlükəsizliyi təmin edə biləcək yeni danışıq yolları tapılsın. Çünki bizim fikrimizcə, bu münaqişənin həlli hərbi yolla deyil, siyasi yolla baş verməlidir. Bu həll yolu sabit, uzunmüddətli və beynəlxalq hüquq çərçivəsində olmalıdır. Bir daha əlavə etmək istərdim ki, İtaliya Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sazişlə bağlı danışıqlarda çox fəal rol oynayır. Hesab edirik ki, bizim ümumi marağımızda olan prioritet məsələlərin daha da inkişaf etdirilməsi Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı çərçivəsində İtaliya-Azərbaycan münasibətlərinə öz töhfəsini verəcək. Cənab prezident, mən, həmçinin Brüsseldə Qətiyyətli Dəstək sənədinin imzalanması ilə bağlı Sizi bir daha təbrik edirəm. Çünki mən hesab edirəm ki, bu, Azərbaycanın əldə etdiyi uğurlu bir nəticədir. Fikirləşirik ki, bu, daha da inkişaf edəcək. İtaliya NATO çərçivəsində əməkdaşlığına, xüsusən Əfqanıstanda göstərdiyi əməkdaşlığa görə Azərbaycana minnətdarlığını bildirir. Bildiyiniz kimi, İtaliya bu sahədə də öz xüsusi rolunu oynayır. Azərbaycanla İtaliya arasında mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə əməkdaşlıq, eləcə də dostluq münasibətləri mövcuddur. İtaliya həmişə Azərbaycanın inkişafı üçün onun yanında olacaq. Həm qonaqpərvərliyinizə, həm də xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm".

**Brifinqdən sonra prezident İlham Əliyev və Sercio Mattarella Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində iştirak ediblər.**

❑ Musavat.com

**Ötən gün Azərbaycanda yumurtanın və toyuq ətinin qiymətinin artması ilə bağlı yazı dərc etmişik. Yazıda qeyd olunur ki, yay mövsümünün əvvəlində 8-9 qəpiyə satılan yumurta indi 14-16 qəpiyə təklif edilir. Toyuq ətinin bir kiloqramı isə 6 manata (əvvəl qiymət 3 manat 80 qəpiklə 4 manat 50 qəpik arasında dəyişirdi) yüksəlib.**

# Aslan İsmayılov indi də toyuq davasına başladı - ətin qiymətini müxbir qaldırırmış...

## Mürvət Həsənli: "O, həmişəki kimi, böhtançı xislətindən əl götürə bilmir..."

Dövlət Statistika Komitəsi də iyun ayı ərzində toyuq ətinin, yumurtanın qiymətinin qalxdığını açıqlayıb.

İqtibas kimi verdik: Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyev oxu.az-a bildirib ki, yumurtanın və toyuq ətinin bahalaşması quş yeminin qiymətinin artması ilə bağlıdır.

Belə ki, yemin qiyməti bahalaşdığından istehsalçılar məhsullarının qiymətini qaldırmağa məcbur olublar:

"İyun ayı biçin olduğu üçün bazarda yem azalır. Köhnə yemin qiyməti qalxır. Yəni istehsalçılar bu müddətdən istifadə edirlər. Yem komponentlərinin dəyərindəki artım yumurtanın maya dəyərinə təsir edir".

**A.Vəliyev deyir ki, ölkənin broyler təsərrüfatları 60 faiz xaricdən asılıdır. Onun sözlərinə görə, yemin 80 faizi xaricdən idxal edilir. Yüksək kalorili yem hesab edilən soyanın tonu 900 manatdan 1400 manata yüksəlib:** "Eləcə də qarğıdalının tonu 300 manatdan 450 manata yüksəlib. Təəssüf ki, məhsul idxal etdiyimiz tərəfdaşlarımız mövsümi amillərdən istifadə edirlər".



**Hüquqşünas Aslan İsmayılov facebook sosial şəbəkəsindəki səhifəsində Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyevin oxu.az saytına dediyi fikirləri "Yeni Müsavat"ın adına çıxaraq bizi yumurta mafiyasına işləməkdə suçlayıb. Hətta onun dırnaq işarəsində verilən fikirlərini də bizim ayağımıza yazıb. Sonra da öz aləmində həmin fikrə cavab da verib:** "Az-çox ağlı olan hər kəs bilir ki, biçin dövründə həm otun, həm də yemin qiyməti ortalama iki dəfə aşağı düşür. Bunu bilmək üçün sadə ağlı, məntiqi olmayanlar hər addımda yerləşən yem satışı mağazalarından maraqlana bilər".

Hesab edirik ki, özünü çox ağıllı hesab edən A.İsmayılov ilk öncə Quşçular Cəmiyyəti sədrinin dırnaq arasında, yəni vasitəsiz nitq olaraq verilən fikirlərinin "Yeni Müsavat"ın mövqeyi olmadığını dərk etməyə çalışmalıdır. Əslində o material bütünlüklə oxu.az portalına məxsusdur, orada portalın və ya yazını hazırlayan jurnalistin şəxsi fikri yer almayıb. Fakt və onunla bağlı əlaqədar təşkilatın rəhbərinin konkret fikirlərinə yer verilib. Qəzetin şəxsi mövqeyi ilə müsahibin fikirlərini bir-birindən ayırd edə bilməyən birinin bizi hansısa mafiyaya işləməkdə suçlaması qədər absurd nə ola bilər ki?

**A.İsmayılovun "yumurta mafiyası"nın adamı kimi təqdim etdiyi iş adamı Mürvət Həsənlinin "Yeni Müsavat"a dediyinə görə, hüquqşünas hər dəfə Türkiyədəki erməni dostlarından pul qopartmaq istəyəndə bu kimi böhtanlara başlayır:** "O, Türkiyədəki erməni dostlarına göstərmək istəyir ki, guya onlara görə burada hansısa mafiyaya qarşı savaşır. Guya yazını oxuyanda başa düşmədi ki, orada qeyd olunan fikirlər redaksiyaya məxsus deyil? Əlbəttə ki, başa düşdü, sadəcə, həmişəki kimi, böhtançı xislətindən əl götürə bilmir..."

**M.Həsənlinin dediyinə görə, hazırda Azərbaycan özünü yumurta və quş əti ilə tam təmin edir:** "Süfrə yumurtasında istehsal tələbatdan da artıqdır. Bu ilin ötən dövründə haradasa 30-40 milyon ədəd süfrə yumurtası İrana və İraqa ixrac olunub. Bu ilin payızından isə damazlıq yumurtanın da ixracına başlayacağıq. Yumurtanın qiyməti bir neçə həftədir yüksəlib. Yüksəlmək də belədir ki, təxminən may ayınadək olan səviyyəyə qayıdıb. Arada bir neçə həftə mövsümlə bağlı qiymətlər düşmüşdü, sonra yenidən qalxdı. Bilirsiniz, hazırda bazarda məhsul qıtlığı yoxdur. Qiymət ona görə qalxır ki, tələbat var. Tələbat çox olanda isə qiymətlər həmişə artır".

**Toyuq ətinə gəlincə, M.Həsənli "Siyəzən broyler"in istehsal etdiyi məhsulun qiymətinin artmadığını söylədi:** "Hazırda ölkədə olmadığıma görə hansı istehsalçının qiyməti qaldırdığını deyə bilməyəcəm. Amma qəti şəkildə əminəm ki, "Siyəzən Broyler" ətin qiymətini qaldırmayıb. Hətta soyanın, yemin qiymətindəki artıma rəğmən artıma gedilməyib. Çünki təklif çoxdur, məhsul boldur. İstənilən şəxs marketlərə gedib "Siyəzən Broyler"in məhsulunun qiyməti ilə maraqlana bilər".

**İş adamının dediyinə görə, ilin sonunadək "Siyəzən Broyler" quş əti istehsalını indiki ayda 1800-2000 tondan 4500-4800 tonadək artıracaq:** "Ondan sonra toyuq ətinin qiyməti aşağı da düşə bilər, çünki təklif bolluğu yaranacaq. Bundan əlavə, yerli yem bazasının formalaşdırılması üçün böyük addımlar atılıb. Payızdan yemin çoxu yerli olacaq. Bu da maya dəyərini aşağı salan amillərdən biridir".

**M.Həsənli bildirir ki, Azərbaycanda quşçuluq sahəsində monopoliya yoxdur:** "Bu sahədə monopoliyanın olduğunu iddia etmək absurddur. Ən rəqabətli, çox oyunçulu bazardır. Burada münasibətləri də sağlam rəqabət tənzimləyir".

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

# Olimpiya kompleksləri MMC-yə çevrilir - səbəb...

## Bu müəssisələrin 32-si Gənclər və İdman Nazirliyinin balansındadır və təsərrüfat hesablıdır

**Ağcabədi Olimpiya İdman Kompleksi hüquqi şəxs statusu alıb. Belə ki, kompleks eyniadlı MMC kimi dövlət qeydiyyatına alınıb.**

"Yeni Müsavat"ın məlumatına görə, "Vergilər" qəzetinin xüsusi buraxılışında qeyd olunur ki, mayın 24-də dövlət qeydiyyatına alınan kompleksin nizamnamə kapitalı 17 milyon 412 min 728 manat təşkil edir.

Hüquqi ünvanı Ağcabədi rayonu, S.Vurğun, ev 220-də yerləşən kompleksin qanuni təmsilçisi Əyyub Həsənovdur.



Qeyd edək ki, Ağcabədi Olimpiya Kompleksinin tikintisi ilə bağlı prezident tərəfindən 2011-ci ilin mayında sərəncam imzalanıb. Sərəncamla tikinti üçün Gənclər və İdman Nazirliyinə 1 milyon manat ayrılıb. Kompleksin 2014-cü ildə istifadəyə verilməsi nəzərdə tutulsa da, bu, 2017-ci ildə reallaşıb. Ümumi dəyərinin isə 3,5 milyon manat təşkil etdiyi bildirilir.

Gənclər və İdman Nazirliyinin internet saytında yerləşdirilən məlumata görə, Ağcabədi Olimpiya İdman Kompleksi 2018-ci ildən fəaliyyət göstərir. Kompleksin ərazisi 5.5 hektardır.

Kompleksin ərazisində 951 tamaşaçı yeri olan universal zalı, üzgüçülük hovuzu, 20 otaqlı 57 yataq yeri olan mehmanxana, trenajor zalı, ağır atletika zalı mövcuddur. Kompleksdə həmçinin bağlı voleybol meydançası, bağlı mini futbol meydançası, 1067 tamaşaçı yeri olan futbol stadionu, mini futbol meydançası, basketbol meydançası, voleybol meydançası fəaliyyət göstərir.

**Nazirliyin Mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova**nın "Yeni Müsavat"a verdiyi məlumata görə, kompleksin MMC-yə çevrilməsi ölkə prezidentinin 2007-ci ilin iyununda imzalanmış "Dövlət əmlakının qorunub-saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" fərmanına əsasən həyata keçirilib.

**Nazirlik rəsmisi deyir ki, kompleks hüquqi şəxsə çevrilməlidir ki, işçiləri qeydiyyata almaq mümkün olsun:** "Kompleksin hüquqi şəxsə çevrilməsi üçün nazirlik tərəfindən müəssisə təşkil olunur. Buna görə də Ağcabədi Olimpiya Kompleksi nazirliyin tabeliyində Məhdud Məsuliyyətli Cəmiyyət kimi təsis olunub. Tək bu deyil, digər komplekslər də belə təşkil olunub".

S.Məmmədovanın dediyinə görə, ölkə üzrə mövcud olan 44 olimpiya idman kompleksinin 32-si nazirliyin balansındadır. Nazirliyin balansında olmayan Naxçıvan, Şərur, Bakı, Maştağa, Quba, Bərdə, Şamaxı, Masallı, Saatlı, Salyan və Sərhədçi olimpiya idman kompleksləridir.

**Hazırda Gənclər və İdman Nazirliyinin balansında olan olimpiya kompleksləri təsərrüfat hesablıdırlar:** "Lakin ərazisindən və funksiyalarından asılı olaraq dövlət tərəfindən onlara il ərzində müəyyən maliyyə dəstəyi göstərilir: kommunal xərclər üçün və sair. Qalan bütün xərclərini onlar özləri ödəyirlər".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# "Bu addım dilimizin qorunması üçün atılıb"

## "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin reallaşması vacib hesab olunur




**İyulun 17-də prezident İlham Əliyev Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında sərəncam imzalayıb. Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasında "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinə, həyata keçirilməsi mexanizmlərinə və icra müddətinə dair təkliflərini iki ay müddətində hazırlanacaq, sonra Nazirlər Kabinetinə təqdim ediləcək.**

Maraqlıdır, "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqi necə olacaq?

Xalq şairi, VHP sədri Sabir Rüstəmxanlı hesab edir ki, bu, son dərəcə vacib sərəncamdır: "Layihənin hazırlanması, Dil Komissiyasının tərkibinin müəyyənləşdirilməsi son dərəcə vacib, dövlət üçün zəruridir".

Filologiya elmləri doktoru, professor Firudin Cəlilov "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin gərəkli olduğunu deyir: "Güman ki, bunu Dilçilik İnstitutunun uzmanları hazırlayacaq. Bu, dilin çox asan yolla öyrənilməsi üçün istifadə olunan vasitədir. Məsələn, dildə 100 min söz varsa, onun hamısı daxil edilməyəcək. Ancaq gündəlik ümumişlək 3 min söz üzərində qurulacaq. Bu layihənin hazırlanması xüsusilə Azərbaycana gələn turistlər üçün, Azərbaycanda yaşayıb Azərbaycan türkcəsini bilməyən başqa xalqlar üçün çox vacibdir".

Millət vəkili Fazil Mustafa bildirir ki, bu layihənin hazırlanması dil haqqında qanunda nəzərdə tutulub: "Dilin qorunması üçün bu cür addımlar atılmalıdır. Əcnəbilər tərəfindən Azərbaycan dilinə hörmət edilməsi baxımından bu vacibdir. Ona görə də belə məsələlərin gündəmdə olması gözləniləndir. Sərəncam da məhz buna yönəlib. Burada standartların müəyyən olunmasından söhbət gedir. Standartların müəyyən olunmasına əsasən də dilə daha həssas yanaşılmanın şahidi oluruq".

❑ **Ləman MUSTAFAQIZI,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018

# Vitse-spikerdən Gəncə olayları ilə bağlı "Yeni Müsavat"a ilginc açıqlamalar

## "Bu, Azərbaycana mesaj verməkdir ki, sizin ən çox inkişaf etmiş saydığınız regionunuzda belə, problem yarada bilərik"



**Bahar Muradova:** "Hətta hadisələr bu şəkildə cərəyan etməsəydi belə, başqa hansısa hadisələrin baş verəcəyini ehtimal etmək olardı"

**Milli Məclisin sədr müavini Bahar Muradova "Yeni Müsavat"a geniş müsahibə verib. Gəncə hadisələri, baş verən olayların arxasındakı qüvvələr, Azərbaycana qarşı xain planların tətikçilərinin kimliyi və digər məsələlərdən bəhs edən söhbətimizi təqdim edirik:**

***- Bahar xanım, əksər ekspertlərin rəyi budur ki, Gəncədə baş verənlər aysberqin görünən tərəfidir. Sizin müşahidə və məlumatlarınız nə deyir, bu hadisələr hansı mərkəzlər tərəfindən planlaşdırılıb, Azərbaycana qarşı planların işə salınmasının səbəbləri nədir? TANAP layihəsinin reallaşmasıdırmı qıcıq doğuran, yoxsa Bakının Avropa İttifaqı ilə əməkdaşlıq istiqamətində növbəti addımları?***

- Görünən odur ki, Azərbaycanın həqiqətən malik olduğu daxili ictimai-siyasi sabitliyi, dünyanın ziddiyyətlər, burulğanlar içərisində olduğu zamanda sanki bir sabitlik adası kimi mövcudluğu, üstəlik də bu şəraitdən istifadə edərək Azərbaycanın dünyaya mümkün bütün qapılarını açması, əks hərəkət üçün siyasət yeritməsi bəzi dairələri qane etmir. Hətta hadisələr bu şəkildə cərəyan etməsəydi belə, başqa hansısa hadisələrin baş verəcəyini ehtimal etmək olardı. Çünki biz bilirik ki, Azərbaycan tipli ölkələrin öz taleyinin və müstəqil siyasi iradə sahibi olması dünyanı öz istədikləri istiqamətə yönəltmək, ölkələri də öz siyasətlərini məhz buna uyğun qurmağa vadar etmək niyyəti ilə fəaliyyət göstərən dairələri heç zaman qane etmir. Konkret ad çəkmək istəməzdim ki, bu, hansı ölkənin marağında deyil və yaxud da bunun arxasında hansı ölkələr dayanır. Hər halda, baş verən hadisələr müxtəlif dairələrin Azərbaycandakı mövcud vəziyyəti, o cümlədən daxili sabitliyi həzm edə bilmədiklərini ortaya qoyur.

***- Siz parlament rəhbərliyində təmsil olunursunuz, rəsmi şəxssiniz. O mənada ad çəkməməyinizi anlayışla qəbul edirik. Amma reallıq budur ki, Azərbaycanın son addımları Qərbin marağındadır. Bakının qərarları iki böyük qonşumuzu qane edə bilməz, üstəlik də Ermənistan faktoru var...***

- Əlbəttə ki, birmənalı şəkildə Azərbaycanın bu cür siyasəti, konkret nəticələrə yönəlmiş addımları ilk növbədə Ermənistan və Ermənistan vasitəsilə öz maraqlarını həyata keçirmək istəyən dairələrin narahatlığına səbəb olur. Bir də ki, Azərbaycan özü haqqında, özünün hədəfləri və buna yönəlmiş fəaliyyəti haqqında açıq mövqe sərgiləyə bilər, bu onun hüququdur. Biz hər zaman demişik ki, bizim istər Avropa, istər digər regionlarla siyasətimiz üçüncü bir tərəfə qarşı yönəlməyib. Biz malik olduğumuz imkanları, resursları həm ölkənin, həm regionun, həm də münasibətdə olduğumuz ölkələrin marağı üçün istifadə etməyə çalışırıq. Malik olduğumuz kommersiya və enerji imkanlarımızı başqa ölkələrə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edən ölkələr sırasında deyilik.

***- Buna baxmayaraq, Azərbaycandan yenə də nələrsə istənilir. Bizim ölkədən nə istəyirlər, nə tələb edirlər? Məsələn, Azərbaycanı Avrasiya Birliyində, Rusiyanın yanında görməkmi istəyirlər?***

- Yenə də siz suallarınızla məsələni konkretləşdirməyə çalışırsınız. Amma mən düşünmürəm ki, sadəcə, bununla bağlıdır. Yenə də deyirəm, Ermənistan və Ermənistanı dəstəkləyən beynəlxalq dairələr ki, var, hər mümkün vasitədən istifadə edərək Azərbaycana təzyiqi davam etdirmək niyyətindədirlər. Çünki erməni lobbisi, erməni diasporu və beynəlxalq aləmdə gedən proseslərin içərisindəki məsələləri erməni maraqlarına xidmətə yönəltməyi özünə peşə seçmiş, bunun da müqabilində yaşamaq imkanlarını sürdürənlər bundan Azərbaycana qarşı istifadə edir. Yəni heç digər dairələr olmasa belə, bir Ermənistanın varlığı, onun Azərbaycana qatı düşmənçiliyi bütün məqamlarda bizi ehtiyatlı olmağa və təhlükəsizlik tədbirlərini görməyə vadar edir.

***- Bununla Ermənistanın rolunu şişirtmirikmi?***

- Yox, Ermənistan vasitədir və bəlkə də o, sizin bayaq dediyiniz məsələnin görünən tərəfidir. Azərbaycanın istənilən sərbəst hərəkətlərinin, müstəqil siyasətinin narahat etdiyi dairələr ondan da bir kart kimi istifadə edərək öz niyyətlərini reallaşdırmağa çalışırlar, bu, bir faktdır.

***- Amma məsələyə tibbi nöqteyi-nəzərdən yanaşsaq, xəstəliklər adətən müqaviməti zəifləmiş insana, yaxud da hansısa problemli orqana daha çox sirayət edir və ağır fəsadlara səbəb olur. Bu mənada baş verənlərin səbəblərinin həm də hansısa bölgədə problemlərin olması, məmur-vətəndaş münasibətlərindəki neqativlərdə axtarılmasına necə baxırsınız? Bəlkə xarici kəşfiyyat orqanları həm də problemli nahiyələri aşkar edəndən sonra orada işləməyə, xain əməllərini reallaşdırmağa qərar veriblər. Bu arqumentlərlə razısınızmı?***

- Bilirsiniz, problem olmayan ölkə yoxdur. Bu gün ən inkişaf etmiş ölkələrdə belə, sizin dediyiniz məsələlər üzrə zəif nöqtələr tapmaq və onun vasitəsilə müəyyən fəaliyyətlər planlaşdırmaq olar. Nəzəri cəhətdən bu, mümkündür. Amma mən düşünmürəm ki, konkret indiki hadisələr sizin dediyiniz məsələlərlə sıx bağlıdır. Sadəcə, burada Gəncə hadisələrini ənənəyə çevirmək istəyənlər və Azərbaycanı qarışdırmaq üçün, elə azərbaycanlıların öz şüuruna "bəli, bu bölgədə, bu nöqtədə problem var və hər dəfə də burdan başlanır" deyə, bunu qəbul edilən fakta keçirmək niyyətləri də var. İndi siz baxın, Gəncə Azərbaycanın ən çox inkişaf etmiş regionlarından biridir və Bakıdan sonra böyük şəhər, özü də dünya miqyasına çıxmış bir şəhərdir. Bu şəhərdə son illər xalqın rifahı, regionun inkişafı, imkanların artırılması üçün xeyli işlər görüldüyünü heç kəs inkar edə bilməz. Məhz Gəncənin seçilməsi də təsadüfi deyildi. Amma mən məsələyə başqa yöndən yanaşmaq istərdim. Məsələnin digər bir tərəfi nədənsə qaranlıq qalır. Biz daha çox bizə yönəldilən istiqamətə getmək istəyirik ki, bəli, guya burada problemlər olub və problemlər olduğu üçün də zəif nöqtəmiz buradır. Əksinə, mən Gəncəni ən çox inkişaf etmiş, Azərbaycanın müasir dövr yeritdiyi siyasətə daha çox dəstək verən, öz bölgəsini, öz şəhərini sevdiyi kimi, bütövlükdə Azərbaycanı inkişafda görmək istəyən və bunun üçün çalışan insanların yaşadığı bir region hesab edirəm. O demək deyil ki, digərləri belə deyil. Amma bu regionun inkişaf göstəriciləri belə deməyə əsas verir. Cənab prezidentin regionların inkişafı ilə bağlı qəbul etdiyi proqramlar, orada ayrı-ayrı regionlarda reallaşdırılması nəzərdə tutulan istiqamətlər və onun nəticələri əlbəttə ki, vacibdir. Konkret olaraq bu bölgəyə yönəldilən diqqət, ayrılan vəsait, onun icrası tapşırılan şəxslərin seçimi, bütün bunlar çox ciddi amildir. Amma mən burada məsələni məmur-vətəndaş qarşıdurmasına bağlamaq istəyənlərlə razılaşmıram. Əksinə, bizə verilən mesaj ondan ibarət olub ki, sizin ən çox inkişaf etmiş, iş görülmüş bölgənizdə problemlər yarada bilərik. Yəni Azərbaycan öz hərbi gücü, iqtisadi potensialı, vətəndaşlarının sosial durumu və daxili sabitliyi ilə çox da öyünməsin. Hesab edirəm ki, mesaj bu şəkildə yönəldilib.

***- Yeni Azərbaycan milli təhlükəsizliyinə təhdidlərdən söhbət gedir...***

- Bəli, təhdiddir. Bu, planlaşdırılmış bir işdir. Xüsusilə Sizin vurğuladığınız bizim nailiyyətlərimizin fonunda belə cəhdlərin olacağını təxmin etmək olar.

Amma yenə yanıldılar. Gəncə camaatı əsil vətəndaş sayıqlığı və məsuliyyəti sərgilədi. Hüquq mühafizə orqanlarımızın şücaəti, öz borclarına sadiqliyi və qəhrəmanlığı isə ayrıca vurğulanmalıdır. Həyatları bahasına cinayət yolunu tutmuş şəxsləri zərərsizləşdirərək asayişi qısa müddətdə bərpa etdilər. Azərbaycan xalqına və dövlətinə sədaqətlə xidmətin hər şeydən öndə olduğunu bir daha nümayiş etdirdilər.

***- Deputat Qüdrət Həsənquliyev son müsahibələrinin birində deyib ki, "baş verənlər əsas döyüş qabağı düşmənin necə cavab verəcəyini yoxlamaq üçün aparılan kəşfiyyat döyüşünə bənzəyir. Azərbaycandan istədiklərini ala bilməsələr, payızda daha böyük təxribatlara cəhd olacaq". Siz qanunverici orqanın rəhbərliyində təmsil olunan şəxs kimi durumun daha da kritikləşəcəyi barədə hər hansı bir məlumata maliksinizmi, yaxud gözləntiləriniz var?***

- Mənim pis yöndə hansısa gözləntim yoxdur və belə bir proqnoz da verməklə istəmirəm. Əminliyim də var ki, Azərbaycan dövləti, müvafiq qurumlar lazımi addımları atmaqdadırlar. O hadisələrin törədilməsində iştirak etmiş, təqsiri olan, maliyyə yardımı göstərmiş, təşkilati mövqedən dəstək vermiş dairələr müəyyənləşdiriləcək və hər kəs Azərbaycan dövlətinin, onun qanunlarının gücünü öz üzərində hiss edəcək. Hansısa bir kataklizmlərin olmasına gəldikdə isə düşünürəm ki, müvafiq qurumlar hətta belə bir cəhdlər niyyətində olanlar varsa da, onların planlarını puç edəcəklər. Buna qəti əminliyim var. Növbəti dəfə bizi ən güclü yerimizdən vuraraq zəifliyimizə inandırmaq istəyənlərin yanıldığını onlara sübut edəcəyik və etməkdəyik, buna birmənalı inanıram.

***- Yuxarıda səsləndirdiyiniz arqumentlər kifayət qədər ciddidir. Amma bəzi həmkarlarınız da hesab edirlər ki, növbəti gərginliklərin yaranmaması üçün bölgələrdə prezidentin siyasətini həyata keçirən şəxsləri, xüsusilə də icra başçılarını sərf-nəzər etməyə, onların yerində olub-olmadığına nəzər salmağa zərurət yaranıb. Bu barədə nə deyə bilərsiniz?***

- Mən mövzunu konkret bir məsələnin üzərində məmur-vətəndaş narazılığının güclənməsinə, eləcə də region rəhbərliyi ilə ölkə rəhbərliyi arasındakı münasibətləri zəiflətməyə yönəlmiş fikirləri tirajlamağın əleyhinəyəm. İnanıram ki, Azərbaycan dövləti, müvafiq qurumlar belə hadisələrin baş verməsinin səbəbkarlarını, təqsirkarlarını, xaricdən maliyyələşdirilənləri, bunu körükləyənləri aşkarlamaqla bərabər, bu və ya digər söz-söhbətlərin yaranmasına səbəb ola biləcək faktları da sərf-nəzər edirlər və etməkdədirlər. Biz bilirik ki, dövlət funksionerlərinin fəaliyyəti hər zaman həm ictimaiyyətin diqqətindədir, həm də Azərbaycan dövlətinin. Bu və ya digər yanlışlıqlar, nöqsanlar olursa, heç bu hadisələr baş verməden də onlar dəyərləndirilir, qiymətləndirilir və müvafiq tədbirlər görülür. Bu, davamlı proses olmalıdır və davamlı bir prosesdir də. Çünki insan təyin olunur, deməli, ona etibar olunur. Hansısa bir nöqsanı varsa, bu da qiymətləndirilməlidir. Ona görə məsələləri buna bağlamaqla özündən narazılıq kompleksini gücləndirmək istiqamətindəki mesajları azaltmaq lazımdır. Əksinə, inam və etimadın gücləndirilməsinə çalışmalıyıq, həm Azərbaycan dövlətinə, həm onun qanunlarına, həm də o qanunları icra etmək tapşırılmış insanlara. Bu, hansısa bir hadisələrdən qaynaqlanaraq daha çox körüklənməməli, daha çox məsələlər onun üzərində cəmləşdirilməməlidir. Biz ümumilikdə fəaliyyətimizdə bunu hər zaman nəzarətdə saxlamalıyıq. Bunun üçün mətbuat, QHT-lər, parlament, həm maliyyə, həm digər nəzarəti həyata keçirən qurumlar var. Şəffaflığın, iştirakçılığın artırılması istiqamətində ölkədə çoxlu işlər görülür, mətbuat və vətəndaş cəmiyyəti nümayəndələri müxtəlif dövlət qurumları yanında fəaliyyət göstərirlər. Biz bunların işini daha da genişləndirməliyik. Həmçinin onların fəaliyyətinin nəticələrinin müsbət istiqamətə yönəlməsi üçün çalışmalıyıq. Biz hər gün görməli olduğumuz işimizi görməliyik. Müvafiq qurumlar da baş vermiş hadisəni araşdırmalı, dəyərləndirməli və günahkarları cəzalandırmalıdır.

**"Mən burada məsələni məmur-vətəndaş qarşıdurmasına bağlamaq istəyənlərlə razılaşmıram"**

***- Bahar xanım, Mingəçevirdəki müəmmalı qəzanın ardınca Gəncədə baş verənlər, həmçinin Sumqayıtdan gələn bəzi xəbərlərin ardınca Milli Məclisin xüsusi iclasının çağırılıb vəziyyətin müzakirə olunması zərurəti barədə fikirlər səsləndi. Parlament rəhbərliyi bu barədə müzakirələr apardımı?***

- Yenə də deyirəm, bu hadisələrin baş verməsi bizi əlbəttə ki, çox narahat edir. Bütün millət vəkilləri bununla bağlı mövqelərini ifadə edirlər, etməkdədirlər. Bu, elə həm də Milli Məclisin mövqeyidir. Amma düşünmürəm ki, müvafiq qurumların öz səlahiyyətlərini yerinə yetirmək imkanları daha təsiredici və daha güclü olduğu təqdirdə biz bu məsələni xüsusi müzakirə etmək üçün Milli Məclisi toplamalıyıq. Elə bunun özü bəlkə də bir çox dairələrin əlinə fürsət vermiş olardı ki, "bəli, biz Azərbaycan hökumətinin dayaqlarını sarsıtmışıq". Biz düşünmürük ki, müvafiq qurumların işinə bu şəkildə yardım etməliyik. Bir millət vəkilinin, yeni konstitusiya ilə verilmiş imkanları çərçivəsində bu məsələlərə dəstəyimizi bildiririk, öz mövqeyimizi ifadə edirik. Hesab edirəm ki, bu gün üçün bu, kifayətdir. Dövlət qurumları öz işini yerinə yetirir, biz onlara inanırıq, onların da gücü imkanları var. Və heç kəs düşünməsin ki, Azərbaycanla hədə və təhdidlərlə danışmaq onlara fayda gətirəcək. Hər zaman olduğu kimi bu mövqedə onları dərin iflas və ifşa gözləyir. Heç kəsin zərrə qədər şübhəsi olmasın ki, xalqın dəstək verdiyi və hər zaman xalqın mənafeyini üstün tutan Azərbaycan dövləti milli maraqlarımıza yönələn bütün cəhdlərin qarşısını qətiyyətlə alacaqdır.

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Biz niyə "bacararıq!" demirik?..

**Hüseynbala SƏLİMOV**

**Deməyin, bunu da artıq qarabasmalar təqib edir və hər şeydə siyasət görür. Otuz ilə yaxındır ki, siyasi təhlillər yazıram və nadir hallarda bu janrdan kənara çıxmışam.**

İndi də adətimi dəyişmək fikrim yoxdur, gəl, fikrim janrdan kənara çıxmaq olmasa da, azacıq mövzunu dəyişməkdir - futbol üzrə dünya çempionatı, xüsusən onun bir məqamı mənə o qədər təsir etdi ki, düşündüm, bunun "siyasi" tərəflərinə toxunmamaq günah olardı.

İlk oyunlardan gözüm Xorvatiya komandasını tutmuşdu. Yox, elə də futbol bilicisi deyiləm, amma bu komandanın meydanda özünü necə inamla aparmasını, əzmlə çarpışdığını görəndə ürəyimdə dedim ki, mən bunlara azarkeşlik edəcəm.

Həm də nə gizlədim, böyük dövlətlər, onların həmişə hamıdan və hər şeydə birinci olması yorubdur məni. Xorvatiya isə "bizimkilər"dəndir - dövlət kimi 27 yaşı var, 1991-ci ildə müstəqillik qazanıb, Azərbaycanla təxminən eyni vaxtda.

Əlbəttə, xorvatlar çempion ola bilmədilər, hətta finalda möhtəşəm, mənim gözlədiyim mübarizəni də göstərə bilmədilər. Gəl, ikinci olmaq da, gümüş qazanmaq da az deyil; bir görün, hansı möhtəşəm komandalar çıxdaş oldu!..

Xorvatiya futbolçuları nə etdilər? Onlar siyasətçilərinin 27 ildə edə bilmədiklərini bir neçə həftənin içində etdilər! Əminəm, bu günlərdə milyonlarla insan Xorvatiya və ya xorvatlar haqda daha çox bilməyə, bu ölkə və xalqla bağlı daha çox maraqlanmağa başladılar.

Bəli, xorvatlar "Biz də bacararıq!" dedilər və bunu etdilər. Bilirsiniz, maraqlı Amerika filmi var. Aviasiya qəzası nəticəsində meşəyə düşmüş bir neçə insanın qurtulmaqçün mübarizəsindən bəhs edir. Bu adamların ərzaqsız - filansız meşədə qalması bir tərəfə, həm də nəhəng bir ayı təqib edir onları. Axırda qərara gəlirlər ki, ayını öldürsünlər. Bunu onlardan biri deyən kimi, o birilər qayıdır ki, bacarmarıq, amma o bir nəfər israrla deyir: "Başqaları bacarıbsa, biz də bacararıq!"...

Belə də edirlər və ayını öldürürlər... İndi bir daha deyirəm ki, xorvat idmançıları da sanki dedilər ki, başqaları futbolda bunu bacarıbsa, biz də bacararıq və finala qədər gəlib çıxdılar.

Biz azərbaycanlılar da çətinliyə düşəndə, dolaşıq və qarışıq situasiyalarda özümüzə belə deməliyik: BAŞQALARI BACARIBSA, BİZ DƏ BACARARIQ...

Yox, yox, demirəm ki, futbolda gəlib dünya çempionatının finalına çıxmalıyıq. Söhbət bundan getmir. Hərə idmanın bir növündə güclü olur və biz də hansısa idman növünü adımızla bağlamasaq da, hər halda, fərd olaraq idmançılarımızın müəyyən uğurları var. Həm də mən "BACARARIQ!" deyəndə tək idmanı nəzərdə tutmuram. Eybi yoxdur, qoy, geriliyimiz futbolda olsun, təki başqa məsələlərdə geri olmayaq...

80-90-cı illərin prosesləri gözlərim önümdən keçib. Bilirsinizmi, nə qədər insan, xüsusən də mühafizəkar yaşlı nəsil "Əşi, biz müstəqil dövlət ola bilərikmi? Rus buna heç imkan verərmi?" - soruşurdu. Amma gənclər "Bacararıq!" deyirdi...

İndi qarşımızda iki çox vacib problem dayanır. Birincisi təbii, Qarabağdır. Bununla bağlı da tərəddüdlər qalır. Hey soruşulur ki, nə vaxt həll olunacaq, nə vaxt bitəcək axı bu proses?

Ərkim çatanlara deyirəm ki, Dağlıq Qarabağ problemi o vaxt həll olunacaq ki, biz daha "Nə vaxt həll olunacaq?" soruşmayacağıq, "Həll edəcəyik!" deyəcəyik.

Belə deyəndə yenə suallar gəlir: Bacararıqmı? Cavabımız birmənalıdır: əgər başqaları bacarıbsa, biz də bacararıq! Başqa yol yoxdur: bacarmalıyıq!..

Tərəddüd duyduğumuz digər vacib məsələ demokratiyadır. Amma hamımız - idarə edənlərimiz də, idarə olunanlarımız da tədricən bunu öyrənməli və alışmalıyıq.

Eyni sözləri bu kontekstdə də demək olardı. Bunu iki min il əvvəl Afinada, 200 il bundan əvvəl Amerikada bacarıblarsa, biz də bacararıq!

Bir neçə gündür ki, müəyyən gərginlik yaşayırıq. Əlbəttə, xüsusi narahatlıq üçün əsas yoxdur. Amma təəssüf, dini radikallar ilk "debüt"lərini etdilər, hətta müəyyən itkilərimiz də oldu. Əlbəttə ki, tez zamanda hər şey stabilləşəcək. Amma bu, artıq bizim üçün yeni situasiyadır: əvvəl belə şey olmamışdı. Fəqət, bir daha deyirik ki, təəssüf ki, dini radikallar bura da yol tapdı.

Ona görə daha bir sınaqdan keçməliyik: əzmlə sübut etmək ki, Azərbaycanı sabit, demokratik və dünyəvi dövlət kimi qoruyacağıq, bura cəhalətin, xurufatın yol açmasına imkan verməyəcəyik. Elə bu səbəbdən heç "Bacararıqmı?!" sualını gözləmirəm də, çünki BACARMALIYIQ!

Hamımızdan asılı məsələdir bu. Şəxsən bəndəniz çoxdan qət edib ki, tamamilə demokratik, ürəyim istəyən qədər azad Azərbaycanı (bu, da bir azacıq fəlsəfi məsələdir: azadlıq susuzluq kimidir, içdikcə doymursan!) görmək qismət olmayacaq mənə - artıq 53 yaşım var...

Amma Azərbaycanı müstəqil və dünyəvi dövlət kimi qoruya bilsək, gələcəkdə gəncliyə onun adına və məzmununa demokratik və hüquqi sözlərini də əlavə etmək çətin olmaz...

# Neft yenidən ucuzlaşmağa başladı

## Vüqar Bayramov: "Yeni neft şoku baş verə bilər"

**Dünya bazarında neftin qiymətində ucuzlaşma davam edir. Belə ki, Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 0,39 dollar və ya 0,57 faiz ucuzlaşaraq 67,69 dollar olub.**

ICE London qitələrarası birjasında Brent markalı neftin qiyməti 0,32 dollar və ya 0,44 faiz azalaraq 71,84 dollar təşkil edib.

Azərbaycan nefti də ucuzlaşmaqdadır. "AzeriLight" markalı neftin 1 barelinin dəyəri 0,45 dollar və ya 0,61 faiz azalaraq 73,34 dollar olub.

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun sözlərinə görə, son günlərdə dünya bazarında neftin qiyməti 6 faizdən çox ucuzlaşıb:** "Neftin dünya bazar qiymətində azalmalar bir sıra iqtisadi və eləcə də siyasi səbəblərlə bağlıdır. Əvvəla, ticarət müharibəsi Çində neftə olan tələbi azaldır. Ötən ay gündəlik 8.36 milyon barel neft idxal edən Çində idxal əvvəlki ayla müqayisədə 9.0 faiz aşağı düşüb. May ayında Çinin idxalı 9.2 milyon barel olmuşdu. Bu, eyni zamanda 2017-ci ilin iyunu ilə müqayisədə də aşağı göstəricidir. Bir il öncə Asiyanın iqtisadi nəhəngi gündəlik 8.8 milyon barel neft idxal etmişdi. Çində tətbiq edilən yeni vergi sistemi də sözügedən ölkənin idxalına təsir göstərməkdədir".

**Nefti ucuzlaşdıran ikinci amil ABŞ-la bağlıdır. Belə ki, ABŞ-da neft hasilatı artmaqda davam edir:** "İyun ayında ABŞ gündəlik 10.8 milyon barel neft hasil edib ki, bu da 2005-ci ildən sonra ən yüksək göstərici hesab olunur. İyulun ilk həftəsində ABŞ-da gündəlik neft idxalı 1.67 milyon barel azalıb və eyni zamanda ixrac 3 milyon barellik rekorda çatıb. Üçüncüsü, Yaxın Şərq ölkələrində hasilatın yenidən artımı müşahidə edilir və bu da bazara təsir göstərməkdədir. Səudiyyə Ərəbistanı hasilatda rekordu təzələməkdədir.

Dördüncüsü, ötən həftə Ağ Ev İran məsələsində daha yumşaq mövqe nümayiş etdirdi. Belə ki, əvvəlki açıqlamalarında bu ilin noyabrınadək İranla neft ticarətini dayandırmayacaq bütün ölkələrə



sanksiya tətbiq edəcəyini bəyan edən rəsmi Vaşinqton bu məsələdə istisnaların olacağını bildirdi. Yəni İranla neft ticarəti edəcək heç də bütün ölkələrə sanksiyalar tətbiq olunmayacaq. Bu isə neft bazarındakı siyasi gərginliyi müəyyən qədər yumşaltdı. Bu arada Rusiya İranın enerji sektoruna yaxın illərdə 50 milyard dollara yaxın sərmayə yönəltmək istədiyini bəyan edib. Tramp isə yenidən böyük hərflərlə "neftin qiyməti aşağı salınmalıdır" twitini atıb".

**V.Bayramov deyir ki, neftin qiyməti müqayisəli şəkildə hazırda yüksək olsa da stabil deyil:** "Əslində siyasi müdaxilələr olmazsa bazar tarazlığı hər barel üçün 60 dollar ətrafında bərqərar olmalıdır. Buna görə də iqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın aradan qaldırılması iqtisadi siyasətin əsas prioriteti olaraq qalmalıdır. Azərbaycan mərhələli şəkildə ixracatda və eləcə də büdcə gəlirlərinin formalaşmasında neftin payının azalmasına nail olmalıdır ki, xarici faktorların təsirlərini minimumlaşdırmaq mümkün olsun".

**Ekspert onu da bildirir ki, ABŞ-da noyabrda keçiriləcək mid-term seçkilər öncəsi Tramp administrasiyası anbarlarında olan nefti mərhələli şəkildə bazara çıxararaq "qara qızılın" qiymətinə təsir etməyə çalışır. "Bloomberg" agentliyinin məlumatına görə, test olaraq 5 milyon barelin, daha sonra 30 milyon barelin bazara çıxarılması müzakirə olunur:** "Hələlik konkret qərar qəbul edilməsə də hətta daha böyük həcmdə satışların olması istisna olunmur. Dünya bazarında Texas markalı neftin bir bareli 68 dollara, Brent markalı neft isə 72 dollaradək ucuzlaşıb. ABŞ anbarların qapağını açacağı halda isə neft bazarında daha ciddi azalmalar proqnozlaşdırılır. Ağ Evdəki müzakirələr reallaşarsa, o zaman yeni neft şokunun yaşanması qaçılmaz olacaq".

Qeyd edək ki, bu ilin yanvar-iyun aylarında Azərbaycan 6 milyard 945 milyon 438,31 min dollar dəyərində 13 milyon 564 min 784,04 ton xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları ixrac edib.

"Yeni Müsavat" Dövlət Gömrük Komitəsinin açıqladığı statistikaya istinadən xəbər verir ki, bu, həcm baxımından 2017-ci ilin 6 ayı ilə müqayisədə 3 milyon 857 min 609,68 ton və ya 39,74 faiz çoxdur, məbləğ baxımından isə 3 milyard 106 milyon 210,61 min dollar və ya 80,91 faiz çoxdur.

Xatırladaq ki, 2017-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycandan xarici ölkələrə 3 milyard 839 milyon. 227,70 min dollar dəyərində 9 milyon 707 min 174,36 ton xam neft ixrac edilib.

2018-ci ilin yanvar-may aylarında xam neftin ixracı Azərbaycanın ümumi ixracının 72,87 faizini təşkil edib.

2018-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Neft Fonduna neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı 8 milyard 665,7 milyon manat gəlir daxil olub.

**❑ DÜNYA, "Yeni Müsavat"**

# Sosial yardım üçün elektron müraciət proseduru sadələşdirilir

## Sosial yardım üçün e-müraciət zamanı "Ərizə-bəyannamə"nin doldurulması proseduru ləğv ediləcək



**Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi və şəffaflaşdırılması işləri çərçivəsində sosial yardımın alınması üçün aztəminatlı ailələr tərəfindən elektron qaydada müraciət proseduru sadələşdiriləcək.**

Nazirlikdən "APA-Economics"ə verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri əsasında bu ilin 30 aprel tarixində yaradılmış müvafiq İşçi Qrupu tərəfindən bu istiqamətdə işlər aparılmaqla, aztəminatlı ailələrin sosial yardım proqramına daha rahat və asan müraciət imkanlarına şərait yaradılması əsas hədəflərdən biri kimi nəzərdə tutulub.

İlkin mərhələdə, sosial yardımın alınması üçün elektron qaydada müraciət zamanı "Ərizə-bəyannamə"nin doldurulması üçün tələb olunan məlumatların sayının azaldılmaqla sadələşdirilməsi təmin ediləcək. Belə ki, tələb olunan məlumatların bir hissəsi (məsələn, ailənin gəlirləri tərkibinə daxil olan pensiya və müavinətlər barədə məlumatlar) aidiyyəti elektron informasiya bazalarından əldə olunacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə bütün benefisiarlar haqqında məlumatların vahid elektron bazada toplanmasını nəzərdə tutan "Sosial Reyestr"in hazırlanması isə e-müraciətin daha da sadələşdirilməsinə imkan yaradacaq. Layihə işə salındıqdan sonra ünvanlı dövlət sosial yardımın alınması üçün elektron müraciət zamanı hər hansı "Ərizə-bəyannamə"nin doldurulmasına ümumiyyətlə ehtiyac qalmayacaq. Ailəni təmsil edən şəxs yalnız FİN nömrəsini daxil etdikdə, həmin ailənin sosial yardım almaq hüquqlarına baxılması üçün tələb olunan bütün zəruri məlumatlar "Sosial Reyestr"dən götürüləcək və yardım təyin olunub-olunmamasına dair avtomatlaşdırılmış mühitdə qərar qəbul ediləcək.

# Sülhəddin Əkbərdən Azərbaycanda baş verənlərlə bağlı heyrətamiz açıqlamalar

## Pənah Hüseyn və Fəzail Ağamalı hadisələrdə xarici güc versiyasını təsdiqlədilər, amma...

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər Mingəçevirdə ölkənin qaranlığa qərq olması ilə nəticələnən hadisələr, ardınca Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı silahlı sui-qəsd, daha sonra iyulun 10-da iki yüksək rütbəli polis zabitinin qətlə yetirilməsi, bundan bir qədər sonra Ağsu və Yevlax rayonları ərazisində eyni vaxtda elektrik xətlərinin altında yanğın törədilməsinin kökündə dayana biləcək səbəblər barədə böyük məqalə yazıb. Strateq.az saytı üçün yazılan məqalə olduğu kimi musavat.com saytında da yayılıb.**

Müəllif yazıb ki, ard-arda baş verən bu hadisələr informasiya və psixoloji müharibə elementləri ilə müşayiət olunub, ölkədə xüsusən də dini-məzhəbi zəmində qarşıdurma yaratmaq və mövcud vəziyyəti qızışdırmaq üçün nifaq toxumları səpilib, başda sosial şəbəkələr olmaqla intensiv iş aparılıb: "Bütün bu baş verənlər, ilk baxışda, Azərbaycana qarşı bir kəşfiyyat-yoxlama hücumunun başladıldığını andırır.

04 iyun 2018-ci il tarixdə məqaləmdə qeyd etmişdim ki, Yeni Böyük Oyunun növbəti pərdəsi - İran pərdəsi artıq başlayıb və Azərbaycan məsələsinin beynəlxalq və regional gündəliyin ön səhifələrinə keçdiyinin işartıları da görünməkdədir. 2001-ci ilin 11 sentyabrından sonra regionda səhnəyə qoyulan yeni böyük geopolitik oyunun növbəti pərdəsinin başlaması ilə azərbaycan məsələsinin də beynəlxalq və regional gündəliyin ön səhifələrinə keçdiyinin işartıları, nəhayət ki, üzə çıxdı. Onun ilk açıq əlamətləri ABŞ və Fransa prezidentlərinin Respublika günü və Azərbaycan Demokratik Respublikasının 100 illiyi münasibətilə azərbaycanlı həmkarlarına göndərdiyi məktubda "Dağlıq Qarabağ məsələsi" ilə bağlı verdiyi mesajlarda göründü. Həmin yazıda onu da qeyd etmişdim ki, "Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın göndərdiyi təbrik məktubunda açıq şəkildə deyilir: "...Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaqdır". Bu açıq mesajlar, eyni zamanda hər iki həmsədr dövlətin xarici işlər nazirlərinin verdiyi tamamlayıcı bəyanatlar, gec də olsa, rəsmi Bakının, eyni zamanda hamımızın "qarşıdan gələn aylar"da nələrin baş verə biləcəyi haqqında ciddi düşünməsini tələb edir..."

S.Əkbər qeyd edib ki, regionda yaranmış bu yeni strateji şəraiti, xüsusən də İran məsələsinin və Ermənistan-Azərbaycan münaqişəsində "status-kvonun" dəyiş(diril)məsi məsələsinin faktiki olaraq aktuallaşdığını və bu arada regionda forpostu olan Ermənistanda baş verən "məxməri inqilab"ı analiz edib qiymətləndirən Rusiya Azərbaycanın işğaldakı 5 rayonunun geri qaytarılmasına, əvəzində "DQR"-ə aralıq siyasi-hüquqi status verilməsinə, onun bu statusla beynəlxalq birlik, o cümlədən Azərbaycan tərəfindən tanınmasına, öz strateji uzantısına və əlavəsinə çevirdiyi Ermənistanla münasibətlərinin inkişafda olduğu Türkiyə arasında ikitərəfli münasibətlərin normallaşmağa başlamasına və sərhədlərin açılmasına, onun Azərbaycan Respublikasından iqtisadi yardım almasına, regional enerji, nəqliyyat və ticarət-iqtisadi layihələrə və regional inteqrasiyaya qoşulmasına, beləliklə, regionda əsasən təcrid olunmuş olan müttəfiqinin bu durumdan çıxmasına, regional inteqrasiyaya, Rusiya-Türkiyə-Ermənistan-Azərbaycan münasibətlərinin inkişafına ciddi stimul verilməsinə, ən başlıcası isə Azərbaycanın İranla sərhəddə, "sülhməramlı qüvvələr" adı altında, öz legitim hərbi iştirakının təmin edilməsinə, beləliklə, regionda yeni strateji şəraitin yarandığı bir dövrdə öz mövqelərinin, təsir və nüfuzunun həm Ermənistanda, həm də Azərbaycanda daha da möhkəmlənməsinə və Azərbaycanda yenidən öz geopolitik təsir sferasına geri qaytarılmasına nail olmaq niyyətinə düşübmüş. S.Əkbər hətta yazır ki, Ermənistanın keçmiş prezidenti Serj Sərkisyan Rusiyanın bu planına razılıq da veribmiş. Məhz bundan sonra Ermənistanda apreldə inqilab başlayıb və Sərkisyanın hakimiyyətdən getməsi ilə nəticələnib.


Sülhəddin Əkbər


Pənah Hüseyn


Fəzail Ağamalı

AzDP sədrinin fikrincə, Rusiyanın bu planının baş tutacağı halda udan tərəf Rusiya və Ermənistan olacaqdı.

**S.Əkbər Ermənistandakı inqilabdan sonra Azərbaycanın daxil olduğu böyük enerji layihələrinin həyata keçirilməsinə və Azərbaycanda baş verən məlum hadisələrin məhz bu dövrdə reallaşmasına diqqət çəkib:** "Nəzərə almaq lazımdır ki, bu hadisələr qarşıdakı aylarda İrana və Rusiyaya qarşı yeni, daha ciddi və ağır sanksiyaların tətbiqinin gündəlikdə olduğu, hər iki dövlətin enerji sektorunun xüsusilə hədəf alındığı və əksinə, onlardan yan keçən enerji layihələrinin, xüsusən də TANAP və TAP kimi layihələrin həyata keçirildiyi və keçirilməkdə olduğu, ümumiyyətlə, Cənubi Qafqaz kommunikasiya (enerji, nəqliyyat, rabitə və ticarət) dəhlizinin inkişaf etdirildiyi bir vaxtda baş verir. Beləliklə, bu nəticəyə gəlmək olar ki, bu gün Cənubi Qafqaz və Xəzər regionunda, o cümlədən Azərbaycanda baş verən hadisələrin başlıca strateji səbəbləri var".

Müəllif məqalədə bu səbəbləri geniş şəkildə yazıb. Səbəblərdən birinin qarşı duran böyük güclərin-ilk növbədə ABŞ və Rusiyanın arasında hər bir region ölkəsi, xüsusən də İranla həmsərhəd olan ölkələr, o cümlədən Azərbaycan və Ermənistan uğrunda mübarizənin yeni həlledici mərhələyə qədəm qoymasını göstərib.

S.Əkbər bildirib ki, Rusiya yuxarıda qeyd olunan məlum gizli planın reallaşdırılmasından imtina etmək və ya vaz keçmək istəyən Ermənistanın yeni "qərbyönlü" hakimiyyətini, həmçinin Azərbaycanı İranın əli ilə cəzalandırmağa cəhd edir.

Bəs digər tanınmış siyasətçilər S.Əkbərin bu fikirlərini bölüşürmü?

**AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a bildirdi ki, terror və güc yolu ilə aparılan mübarizə perspektivsiz mübarizə formasıdır. Bu mübarizə forması çox zərərli və qüsurludur, istər vətəndaşların, istərsə də dövlətin maraqlarına cavab vermir:** "Xüsusən indiki məqamda dünyanın qloballaşdığı bir şəraitdə bir-biri ilə rəqabətdə olan güclərin diqqət mərkəzində olan yerlərdən biri kimi Azərbaycanda həm də bu hadisələrin xarici ayağının ola biləcəyini nəzərə almaq lazımdır.

Mənim əlimdə konkret fakt yoxdur ki, bu hadisələrdə hansı xarici gücün əli var. İndi təhqiqat gedir. Prinsip etibarilə Azərbaycanda gedən proseslərdə həmişə xarici güclərin də rolunu istisna eləmirəm. Konkret son hadisələrdə də xarici güclərin rolunu istisna eləmirəm.

Rusiyanın son dövrlər siyasətində dəyişikliklər görünür. Məsələn, Xəzərin statusu haqqında konvensiyanın layihəsi Rusiya hökumətində təsdiq olunub və Xəzər dənizinin dibindən kəmərlərin çəkilməsinə artıq Rusiya razılaşıb. O baxımdan da bu enerji kəmərləri strategiyasına Rusiyanın və İranın münasibəti əvvəlki münasibət deyil. Əslində indi daha təhlükəli vəziyyət yaranıb. Rusiya əslində çəkilmiş kəmərləri öz təsiri altına alaraq geosiyasi, geostrateji maraqlarını bu şəkildə davam etdirmək xəttini götürüb. Bəzən təhlillərdə absurda gedib çıxmaq olmaz. Amma Azərbaycanda baş verən məlum proseslərdə Rusiyanın da, İranın da özlərinin geosiyasi, geostrateji maraqlarının olması da bəllidir".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə bildirdi ki, müəyyən xarici güclərin Azərbaycanı qarşıdurma meydanına çevirmək planları açıq şəkildə özünü ifadə etməkdədir. Hüquq-mühafizə orqanlarının peşəkarlıqla həyata keçirdikləri əməliyyat tədbirləri və onların verdikləri açıqlamalar dediklərimizi sübut edir:** "Mən də bu fikirlə şərikəm ki, bütün bu hadisələrin Azərbaycanı zəifləmək, xaotik ölkəyə çevirmək istəyən anti-Azərbaycan qüvvələri var. Əlbəttə, burada qonşu ölkələrdən müəyyən dairələr də bu qüvvələrin içərisində yer alır. Azərbaycan getdikcə ciddi uğurlara imza atmaqdadır. Xüsusi olaraq ölkə prezidentinin 15 il ərzində həyata keçirdiyi uğurlu siyasət həm Azərbaycanın daxili inkişafında mühüm rol oynayıb və onun immunitetini gücləndirib, eyni zamanda ölkəmizin beynəlxalq aləmdə nüfuzu xeyli artıb, dünya siyasətində özünün transmilli layihələrinin reallaşması ilə ciddi mövqelərə çıxıb. Balaca bir ölkənin qısa zaman kəsiyində öz daxili problemlərini həll edərək dünya miqyasında atmış olduğu mühüm addımlar, əlbəttə, bir çox dairələri ciddi narahat etməkdədir. Azərbaycanın bu uğurlarını həzm etməyən həmin dairələr ən müxtəlif yollarla dövlətçiliyimizə təhdidlər törədiblər. Bundan sonra da törətməyə cəhd edəcəklər. Əlbəttə, bütün bunların qarşısını Azərbaycan dövlətinin, xalqının və prezidentinin iradəsi alır və alacaq. TANAP-ın və TAP-ın uğurla həyata keçirilməsi Avropa enerji bazarında Rusiyanın mövqeyinə təsir edir. Avropa bu kəmərlər vasitəsilə təkcə Azərbaycan qazını deyil, eyni zamanda Xəzərin şərq sahilində Türkmənistanın da qaz ehtiyatlarını əldə edəcək. Gözlənilir ki, İran qazı da bu xətlə Avropa bazarına çıxa bilər. Bu artıq müəyyən suallar doğurur. Odur ki, Rusiya Azərbaycanın bu Cənub axını layihəsindən məmnun deyil.

İranla Rusiya arasında ən müxtəlif sahələrdə razılaşmalar da var. Onlar bir çox məsələlərdə bərabər hərəkət edirlər. İrandakı müəyyən dairələr Azərbaycanın güclənməsinə mane olmağa çalışırlar. Onlarla Rusiyanın müəyyən dairələrinin maraqlarının üst-üstə düşməsi reallıqdır. Bu baxımdan onların birgə fəaliyyətini istisna etmirəm. Lakin bunu tamamilə təsdiq etmək imkanlarım da yoxdur".

**F.Ağamalı dedi ki, Sülhəddin bəyin yazdıqları təbii ki, onun subyektiv fikirləridir və ola bilsin ki, onun bu və ya digər mənbələrdən əldə etdiyi müəyyən məlumatlara söykənir. Lakin ən dəqiq məlumat Azərbaycan hüquq-mühafizə orqanlarının ixtiyarındadır:** "Ona görə də mən tamamilə inanıram ki, hüquq-mühafizə orqanları iyul ayının ilk günündən baş verən məlum hadisələri ətraflı təhqiq edəcək. Hadisələrin kökündə nələrin dayandığı tam dəqiqləşəcək. Hər bir halda baş verən həmin hadisələrdən sonra biz bundan sonra da tam ayıq-sayıq olmalıyıq, prezidentimizin və dövlətimizin ətrafında xalq olaraq sıx birləşməliyik".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018



# Dəfn edilmiş qələm

Zamin HACI
zaminhaci@gmail.com

"Səhər fotosunu çəkdik. Xoşbəxtcəsinə "abır" deyib ulayır. Bunu hər dəfə daha ucadan, sevinclə təkrarlayır".

*(Mixail Bulqakov, "İt ürəyi")*

**İndiki uşaqlar çox ağıllıdır. Şübhəsiz, onlar bizdən çox qabağa gedəcəkdir ("Guya müəllif burada çox orijinal bir fikir yazdı" - oxucular qımışdılar. Etiraf edirəm ki, mənasız cümlə idi, çünki uşaqlar istənilən halda bizdən qabağa gedirlər). Təzəlikcə görürəm bizim uşaq həyətdə torpağı eşib qəbirə bənzər nəsə düzəltdi. Lap o məşhur peyin və qumdan heykəl qayıran uşağın əhvalatı kimi, mən də səsimə süni mehribançılıq tonları qatıb uşaqdan soruşdum: "Orada nə basdırmısan, balaca?" Uşağın cavabından şoka düşdüm. Sən demə, bunun bir sevimli qələmi varmış, qələm sınıb, indi qələmi dəfn edirmiş, xatirəsini həmin qəbir modeli ilə yaşatmaq istəyirmiş. 25 ilin jurnalistinə qələmin qəbrini göstərən uşaq, sizcə, zəmanənin qəhrəmanı deyilmi?**

Mən ürəyimdə uşağa əhsən oxudum. Bunu isə qarşıdan tozanaqla gələn 22 iyul Milli Mətbuat Günümüzə cocuqlardan hədiyyə olaraq qəbul elədim. Artıq bu münasibətlə bayram tədbirlərinə start verildiyini görməkdəyik. Peyinqurdu kənd sovetinin sədri Məmmədalı müəllimdən tutmuş Dövlət Sosqozxozcartfırt Agentliyinin direktoru Tırtılverdi müəllimə qədər hər bir məsul şəxs jurnalist və zurnalistlərimizi Həsən bəy Zərdabi yolunda əzmkarlıqla süpürləşmələri münasibəti ilə qutlamağa çalışır. Hərəsi azı bir kağız diplomdan-zaddan qayırıb qəzetçilərin qoltuğuna verməyə hazırlaşır. Mətbuat günü ölkəmizdə yeganə peşə bayramıdır ki, bütün millət, bütün dövlət, bütün qeyrət idarələri tərəfindən təntənə ilə qeyd olunur, eyni zamanda jurnalistika yoxa çıxmaq üzrədir. Demək, yaxın gələcəkdə media bizdə haradasa din statusunda bir sahə olacaqdır - hamı inanır, hamı pərəstiş edir, qurban kəsir, dua eləyir, ancaq özünü görən yoxdur. Biz jurnalistlər də təxminən şeyxlər, pir yiyələri, ocaq sahibləri kimi məxluqata çevriləcəyik. Buna görə dərin minnətdarlığımızı bildiririk. Verən əliniz kəsilməsin. Axar suyunuz quruması. Qaba ağacınız əyilməsin! Ağam, hey!

İndi keçək gündəlik, cari məsələlərə. Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin yaradılması uca millətimizi olduqca sevindirdi. DMXEİA zamanın tələbi idi. Çünki mineral xammal ehtiyatlarımızdan istifadə sahəsində müəyyən gerilik yaranmışdı. İndi isə vacibdir ki, mineral xammal ehtiyatlarından istifadə agentlərinə ictimai nəzarəti təmin etmək üçün Baş Prokurorluq yanında Korrupsiya ilə Mübarizə İdarəsinin nəzdində Dövlət Mineral Xammal Ehtiyatlarından istifadə Agentliyinə Nəzarət Baş İdarəsi də yaradılsın. Burada yadımızdan çıxmamış qeyd edək ki, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin özü də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin daxilində yaradılıbdır. Bütün bu dövlət idarələrinin işçilərini toplasan bir dənə faydalı qazıntı quyusunu beş metr qazmaq mümkün deyildir. Ancaq əsas odur idarə var! Bizə başqa nə lazımdır? İdarəsiz heç nə olmamalıdır. Uçan quşun, sürünən ilanın, deyilən yalanın, yalanan yalın, Yalançı oğlu Yalıncığın - uzun sözün qısası, hər şeyin, hər kəsin idarəsini başıboş buraxmaq olmaz.

Sonda o bayaq adını çəkdiyim uşaq və qum anekdotunu yazım, çün, ola bilər bəzi uşaq-muşaqlar onu bilməsin - köhnə lətifədir. Deyir bir dəfə bir deputat gedir seçicilərlə görüşə, bu zaman küçədə qum, mal peyini, su qarışdırıb heykəl düzəldən uşaq görür. Uşaqla guya dilxoşluq eləyir, soruşur: "Bala, nə düzəldirsən?" Uşaq deyir: "Deputat heykəli". Deputat hirslənir, uşağı danlayıb gedir. Qayıdanda görür uşaq yenə heykəl düzəldir, ancaq bu dəfə mal peyini qatmır. Sevinir, yaxınlaşıb yenə soruşur ki, nə düzəldir. Uşaq deyir: "Adam heykəli". Deputat duruxur: "Bəs niyə peyin qatmırsan?" Uşaq deyir: "Peyin qatsam deputat heykəli olacaq".



# ABŞ-ın yeni Qarabağ planı - Ağ Ev Bakını İrəvanla barışdırır?

## İran ətrafında daralan mühasirə Qarabağ məsələsini keyfiyyətcə yeni müstəviyə daşıya bilər; Trampın İlham Əliyevə mesajı və fransız analitikdən ilginc iddia; gələn həftə Putin Paşinyanı yenidən "xalça üzərinə" çağıracaq...

**Helsinkidə ABŞ və Rusiya prezidentləri - Donald Tramp və Vladimir Putin arasında 4 saatlıq görüş Trampın tələsik bəyanatlarına və Putinə şəxsi simpatiyasına rəğmən, əksər siyasi təhlilçilərə görə, iki fövqəlgüc arasında gərginliyi azaltmayacaq. Bu gərginlik isə ilk növbədə ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasında da əksini tapdığı kimi, Rusiyanın həmsərhəd ölkələrə qarşı aqressiv siyasəti və Yaxın Şərq məsələsində tutduğu mövqe ilə birbaşa bağlıdır.**

Xatırladaq ki, həmin sənəddə Rusiya İran və Şimali Koreya ilə birgə ABŞ üçün üç ən təhlükəli dövlət elan edilib. Bu kursu dəyişmək isə Ağ Evin hazırkı başçısının iradəsi kənarındadır. Necə ki, Helsinki görüşündən sonra da Tramp bəzi bəyanatlarına düzəliş eləməyə başlayıb...

Ancaq konkret olaraq İran məsələsində Ağ Evlə Konqres arasında, demək olar, fikir ayrılığı yoxdur. Artıq Vaşinqton Tehranla 3 il öncə imzalanan "Nüvə anlaşması"ndan İsrailin iradəsinə uyğun olaraq birtərəfli qaydada çıxıb, Tehrana qarşı yeni sanksiyalar elan edib, hətta İran rejimi ilə sıx əməkdaşlıq edən, ondan neft alan ölkələri hədələyib, onlara noyabra kimi vaxt verib. Bura Avropa Birliyinin bəzi ölkələri də daxildir.

Şübhəsiz ki, İrana qarşı daha effektli sanksiya siyasəti üçün onunla həmsərhəd ölkələrə xüsusi diqqət yetiriləcək. Bura Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionu da daxildir. Bu isə həm də Rusiya maraqlarına toxunmaq deməkdir. Bir sözlə, qarşıdakı aylarda Güney Qafqaz və onun ətrafında proseslərin İran məsələsindən dolayı daha sürətli və hətta kritik axarda getməsini gözləməyə dəyər. Bu xüsusda beynəlxalq çaplı analitiklərin proqnozları da maraq doğurur.

*****

**Məsələn, fransalı şərhçi Olivye Morel hesab edir ki, ABŞ Cənubi Qafqazda Azərbaycan və Ermənistanı barışdırıb İrana qarşı böyük koalisiya yaratmaq istəyir. "Yeni Müsavat" publika.az-a istinadla xəbər verir ki, bu iddia ilə o, özünün regionla bağlı məqaləsində çıxış edib. Onun fikrincə, amerikalı ideoloqlar hesab edirlər ki, münaqişə Qarabağın mərhələli şəkildə Azərbaycana qaytarılması çərçivəsində həll olunmalıdır.**

"Ermənistanın təzə baş naziri Nikol Paşinyan Vaşinqtondan dəstək almaq üçün bu ssenari ilə razılaşmağa hazırdır. Diqqətçəkən məqamlardan biri odur ki, Ermənistan kimi kiçik ölkədə ABŞ-ın böyük diplomatik korpusu mövcuddur. Görünür, Ermənistan Ağ Evin ciddi nəzarəti altındadır", - deyə analitik vurğulayıb.

Ekspertə görə, ABŞ həmçinin Qarabağ münaqişəsinin nizama salınmasında Rusiyanın aparıcı vasitəçi olmasını sıradan çıxarmaq və özünün əsas təşəbbüskar kimi çıxış etməsini təmin etmək istəyir. "Ruslar "Lavrov planı" ilə münaqişəni həll etmək və dominantlığı qorumaq niyyətindədir (**söhbət Azərbaycan üçün tələ rolu oynayan 5 rayonun qaytarılması qarşılığında ağır şərtlərdən ibarət plandan gedir - "YM"**). ABŞ isə buna qarşı öz variantlarını hazırlayır. ABŞ-ın Ermənistana marağının böyük olması təsadüfi deyil. ABŞ milli təhlükəsizlik layihəsinin analitiki Daniel Trumanın fikrincə, Ermənistan dünyanın ən təhlükəli regionunda strateji mövqeyə sahibdir. Belə ki, bu ölkə Ön Asiya və Avropaya çıxışı bağlayaraq, Cənubi Qafqazda türklərə qarşı İranın tarixi müttəfiqidir. Bu gün Ermənistan İranın yeganə sakit sərhədidir. Tehran Ermənistanı fars imperiyasının müvəqqəti itirilmiş ərazisi kimi qəbul edir. Ona görə də ötən il Ermənistanın Gürcüstanda və Rumıniyada keçirilən NATO təlimlərimdə iştirakını Tehran kürəyə zərbə kimi qiymətləndirdi. Ermənistan üçün regionda İrandan başqa müttəfiq yoxdur. Çünki Azərbaycan, Türkiyə və Gürcüstan birgə ittifaq qurur, İrəvan üçünsə yeganə yol Tehran qalır. İrana hücuma hazırlaşan ABŞ üçün Qarabağ münaqişəsinin tərəflərindən birini seçmək lazım gələcək. Lakin amerikalı ideoloqlar münaqişəni həll edərək, İrana qarşı regionda koalisiyanı gücləndirmək istəyirlər. Şimali İranda (Güney Azərbaycan - "YM") pantürkizm əhval-ruhiyyəsi güclüdür və artıq orada vəziyyət lazımi formada közərdilib. Bu bölgədə mərkəzdənqaçma meylləri ABŞ-ın qurduğu koalisiya ilə birlikdə İrana hücumunu tezləşdirə bilər", - deyə təhlilçi iddia edib.

**O.Morel ardınca Ermənistanda hakimiyyət dəyişikliyinə diqqət çəkərək, bunun da ABŞ-ın planı olduğunu qeyd edib:** "Ermənistandakı çevriliş Rusiyanı çətin vəziyyətə saldı. Moskva indi İrəvan və Bakı arasında seçim etməlidir ki, bu da onun mövqelərinin zəifləməsi ilə nəticələnəcək. Tamamilə məntiqlidir ki, ABŞ Ermənistanda siyasi rejimi dəyişdirərək, regionda özünün forpostunu yaradır. ABŞ, faktiki olaraq, regionda Rusiya və İrana qarşı qoya biləcək ölkə axtarır. ABŞ-ın Rusiya və İranla münasibətlərinin sonrakı eskalasiyası Vaşinqtonun Dağlıq Qarabağ münaqişəsinin həllinə marağını artıracaq. Amerika müharibənin müstəvisini genişləndirmək üçün strateji rəqiblərinə problemlər yaratmağa davam edəcək. Təbii ki, bunun uğurlu olub-olmayacağını zaman göstərəcək. Digər tərəfdən, Rusiyanın dəfələrlə bölgədə qurulan oyunu pozmağı bacardığı unudulmamalıdır".

*****

Bu yerdə xatırladaq ki, ABŞ prezidenti D.Tramp az öncə azərbaycanlı həmkarı İlham Əliyevə ünvanlandığı məktubda "yaxın ayların Dağlıq Qarabağ məsələsi üçün mühüm olacağını" vurğulamışdı. Bundan az sonra işğalçı ölkədə ABŞ-ın bilavasitə ssenarisi ilə hakimiyyət çevrilişi baş verdi və "Amerikanın adamı" Paşinyan Ermənistanın birinci şəxsinə çevrildi. Lakin Paşinyan ölkəsi üçün İranın da strateji əhəmiyyət daşıdığını bəyan edir. Hərçənd Qərbin - ABŞ və Avropanın real maliyyə və təhlükəsizlik dəstəyini almaq naminə İrəvanın xüsusən də indi Tehran rejimindən məsafə saxlamaq cabası aydın sezilir.

Yeri gəlmişkən, İran prezidenti Həsən Ruhani N.Paşinyanı öz ölkəsinə səfərə dəvət edib. Bu səfərin nə vaxt reallaşacağı isə bəlli deyil. Ermənistan hökuməti bununla bağlı açıqlama yaymağa tələsmir. Bəzi erməni mənbələrinə görə, hazırkı qəliz geosiyasi durumda Paşinyan özü yox, prezident Armen Sərkisyan İrana gedə bilər. Yəni ikili oyun məsələsi. Halbuki Paşinyan, deyildiyi kimi, İranı Ermənistan üçün Rusiya qədər önəmli sayır. Lakin ilk xarici səfərini Rusiyaya edən Paşinyan İrana getməyə nədənsə tələsmir.

ABŞ-ın İran və Güney Qafqazla (Qarabağla) bağlı yeni planına gəlincə, şübhə yox ki, Moskva bu plana qarşı ciddi təpki göstərəcək. Çünki özünün regiondakı mövqeyinin və dayaqlarının zəifləməsi ilə elə-belə barışmayacaq. Nə dərəcədə alınacaq, bunu zaman göstərəcək.

*****

Bu arada Ermənistanda keçirilən son rəy sorğusu inqilabdan sonra erməni əhalinin Avropa Birliyi və NATO-ya rəğbətinin 90%-ə çatdığını aşkara çıxarıb. "Yeni Müsavat" erməni qaynağına istinadən xəbər verir ki, paralel surətdə Rusiyanın Ermənistanda və regionda apardığı siyasətdən narazılığın rekord həddə çatdığı məlum olub. Hərçənd Rusiya bütün son baş verənlərə rəğmən, işğalçı ölkənin əsas varlıq və təhlükəsizik qarantı olaraq qalır. Bundan əlavə, hazırda Rusiyada Ermənistandakı əhalidən də çox erməni əmək miqrantı kimi ailəsinə çörəkpulu qazanır.

Sonda əlavə edək ki, gələn həftə - iyulun 26-da Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyaya yollanacaq. Sankt-Peterburqda Avrasiya Birliyi Hökumətlərarası Şuranın toplantısı çərçivəsində onun Rusiya prezidenti Vladimir Putinlə yenidən bir araya gələcəyi gözlənilir. Putin Brüssel səfərindən təzəcə qayıdan Paşinyanı ikinci dəfə "xalça üzərinə" çağıracaq...

❑ "Yeni Müsavat"ın analitik xidməti

# ABŞ-la Rusiya "mehriban düşmən"ə çevrilir

## Azərbaycana iki supergücün yaxınlaşması, yoxsa qarşıdurması sərf edir?

**İyulun 16-da Helsinkidə Rusiya və Ermənistan prezidentləri arasında keçirilən görüşdən sonra iki ölkənin münasibətlərinin bundan sonra necə olacağı müzakirə edilir. ABŞ prezidenti Donald Tramp bildirib ki, ABŞ-Rusiya münasibətləri əhəmiyyətli dərəcədə yaxşılaşıb: "Rusiya ilə münasibətlərimiz indiyədək belə pis olmamışdı, lakin indi əhəmiyyətli dərəcədə yaxşılaşıb, gələcəkdə daha da yaxşılaşa bilər".**

Bəs doğrudanmı Rusiya-ABŞ münasibətləri düzələ bilər? Trampın son 1 ildəki addımları ciddi nəticələr verib-Şimali Koreya lideri ilə görüşüb, Amerika vətəndaşları və ölkə daxili üçün ciddi işlər görüb, ABŞ bazarlarını Çin və Avropa mallarından qoruyur, NATO üzvlərinə "üzvülük pulu ödəyin, yoxsa NATO-nu dağıdaram"-deyə, hədə-qorxu gəlir, indi də Rusiya ilə münasibətləri sürətlə yaxşılaşdırır. Bu adamın tam bir Amerika təəssübkeşi olduğunu, yalnız öz dövlətinin və vətəndaşlarının maraqlarını düşündüyünü söyləmək mümkünmü? Belədirsə, nədən Amerika mediası onu vurur?

Azərbaycana ABŞ-Rusiya, ABŞ-İran münasibətlərinin yaxşı, yoxsa pis olması sərf edir? Rusiya və İranla ABŞ çəkişəndə, Azərbaycanın əhəmiyyəti və neftin qiyməti qalxır. Bu baxımdan hesab etmək olarmı ki, ən azından iqtisadi məsələdə bizə onların çəkişməsi lazımdır?

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, ABŞ və Rusiya prezidentlərinin Helsinkidəki görüşündən müxtəlif nəticələr çıxıb. Birincisi, Rusiya prezidenti Vladimir Putin iki ölkə arasında terrorizmlə birgə mübarizənin aparılmasının tərəfdarıdır. Məsələn, Putin təklif edib ki, xüsusi xidmət orqanları arasındakı əməkdaşlıq davam etsin və bu, sistemli şəkil alsın. İkincisi, Putin istəyir ki, iki ölkə arasında Suriyada əməkdaşlıq formatları tapılsın. Putin Trampa kompliment edərək onun Şimali Koreya nüvə məsələsinin həllindəki yüksək rolunu vurğulayıb: "Halbuki Tramp özününkülərdən narazıdır ki, niyə Amerikada onun Şimali Koreya nüvə məsələsinin həllindəki rolunu lazımınca qiymətləndirmirlər. Putin bu mənada Trampın zəif damarını tapıb. Üçüncüsü, İran məsələsində razılaşma əldə olunmadı, tərəflərin mövqelərində dəyişiklik baş vermədi, bu heç gözlənilmirdi də. Tramp İranı çökdürmək istəyir və bu planında heç bir dəyişiklik etməyəcək. Dördüncüsü, prezidentlər Suriya məsələsində də hər hansı razılıq əldə etmədilər. Ukrayna məsələsində tərəflərin mövqeləri dəyişməyib. Bu görüşə qədər ehtiyat edilirdi ki, Donald Tramp Krımın ilhaqını qəbul edə bilər. Helsinkidə bu baş vermədi. Bu görüşə baxmayaraq, Tramp Avropanın Rusiyadan enerji asılılığının əleyhinədir və bu durumu dəyişməyə çalışır.

Helsinki görüşünün əsas nəticəsi budur ki, iki ölkə arasında müxtəlif məsələlərdə dərin fikir ayrılıqları olsa da, dialoq davam edəcək. Trampa və Putinə də elə bu lazım idi. Ancaq Putinin amerikalı həmkarı ilə dialoqda bir problemi yoxdursa, Trampı daxildə ciddi suallar gözləyir, Amerikadakı siyasi mərkəzlər və media ABŞ prezidentinin Putinlə dostluğunun və sıx dialoqunun əleyhinədir".

**Politoloq hesab edir ki, ABŞ və Rusiya prezidentləri arasında dialoqun başlaması və əldə olunan ilkin nəticələr, münasibətlərdə yaxınlaşma Azərbaycanın da xeyrinədir. Çünki bu iki dövlət arasında münasibətlər son dərəcə gərgin olanda Rusiya qonşularının ABŞ-la tərəfdaşlıq münasibətlərinə qısqanc yanaşır, həmin ölkələrə qarşı müxtəlif təzyiq alətlərini hərəkətə gətirir:** "Doğrudur, iki ölkə arasındakı münasibətlər prezidentlərin bir görüşü ilə tamamilə yoluna qoyulmayacaq, ancaq dialoqun yoğunlaşması Avrasiya bölgəsində müsbət atmosfer yarada bilər. Rusiya və ABŞ Azərbaycanla tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə çalışır. Rəsmi Bakı bu iki dövlətdən hər hansı birinə üstünlük vermək istəməsə də, Azərbaycanın inkişafı və təhlükəsizliyi Qərbin siyasi, iqtisadi və hərbi strukturları ilə sıx inteqrasiya ilə əlaqəlidir".

**Keçmiş maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov isə bildirdi ki, ABŞ prezidentinin son aylarda atdığı addımlar dünyanın siyasi meydanında baş verən gözlənilməz hadisələr kimi dəyərləndirilə bilər. Onun bu yaxınlarda Şimali Koreyanın lideri ilə, heç kimin gözləmədiyi halda Rusiya prezidenti ilə görüşləri zamanı bu qədər isti münasibət yarada bilməsi nə qədər qəribə görünsə də, danılmaz həqiqətdir:** "Trampın Putinlə görüşdən az sonra öz twitter səhifəsində yazdığı fikirlər daha çox diqqət çəkir. İlə risk edib siyasi qazanc əldə etməkdənsə, bəşəriyyət xatirinə siyasi risklərə getməyə daha çox hazıram" yazması düşündürücüdür. Trampın on illər boyu ipə-sapa yatmayan və qonşu dövlətləri, hətta ABŞ-ın özünü nüvə silahı ilə hədələyən Şimali Koreya rəhbərini "ram" edə bilməsi, onun bu fikirləri söyləməkdə haqlı olduğunu göstərir. Hazırda ABŞ-da Trampın populyarlığı 11 sentyabr 2011-ci ildə baş vermiş məlum terror aktından sonrakı dönəmdə kiçik Corc Buşun populyarlıq səviyyəsi ilə müqayisə edilə bilər. İndi Tramp eyni zamanda həm Amerikanın və həm də bəşəriyyətin maraqlarını qorumaq xatirinə riskli addımlar atır. Təsəvvür etmək çətin deyil ki, ABŞ Konqresində Rusiyaya qarşı yeni sanksiyalar üzərində iş aparıldığı bir vaxtda Trampın şimal qonşumuzun rəhbərliyi ilə bu qədər isti bir münasibət formalaşdırması Birləşmiş Ştatların rəsmi dairələri və ilk növbədə Rusiyaya qarşı sanksiya istəyində olan konqresmenlər tərəfindən necə qarşılanır. Ancaq Tramp heç nəyə baxmadan özünü dünyanın siyasi düzənində ciddi korrektələr etməyə kökləyib. Zaman onun bu addımlarının nə ilə nəticələnəcəyini tezliklə göstərəcək. Müzakirəyə ehtiyacı olmayan bir həqiqət var ki, ideoloji cəhətdən fərqli qütblərdə dayanan tərəflərin müttəfiqliyi bir qayda olaraq möhkəm və ya uzun ömürlü ola bilmir".

**F.Yusifov hesab edir ki, ABŞ-ın Rusiya və İranla münasibətlərinin gərgin olması neftin qiymətlərinin artımına təsir etsə də, Rusiya və İranın arasında yerləşən Azərbaycanın siyasi baxımdan xeyrinə olmur. Azərbaycana bu dövlətlərin münasibətlərinin normal olması sərf edir:** "Bu dövlətlərin dünyanın çox yerində olduğu kimi, Cənubi Qafqazda da öz maraqları var. Maraqlarının toqquşmasından isə Azərbaycan əziyyət çəkir".

**Siyasi ekspert Yeganə Hacıyeva isə qeyd etdi ki, tarixə nəzər salsaq, dünya siyasətində genişmiqyaslı dəyişikliklərə yol açmış SSRİ prezidenti Mixail Qorbaçovla ABŞ prezidenti Corc Buş arasında ilk görüş də 1990-cı ildə Helsinkidə baş tutub. İndi də bu iki dövlət arasındakı münasibətlər o qədər sərin məcraya yönəlib ki, hətta sovetlər döneminin "soyuq müharibə" aurasını xatırladır. Dünyanın bir çox zəruri sayılan sülh və əmin-amanlığının təmini məhz bu iki ölkə arasında əldə olunan razılaşmadan keçir və bir çox coğrafiyalarda sülh məhz bu iki gücünün regional və regionlararası təhlükəsizlik siyasətlərinin uzlaşmasından birbaşa asılıdır:** "Mövcud qlobal siyasi müstəvi ABŞ və Rusiyanın Yaxın Şərq, İran, Mərkəzi Asiya və həmçinin Cənubi Qafqaz siyasətində uzlaşma ehtiyacı yaradıb. Tramp bunu nəzərə aldığı üçün Rusiya ilə münasibətləri yaxşılaşdırmaq xəttini seçir.

Rəsmi Moskva isə Mərkəzi Asiya və Xəzər regionu, Yaxın Şərq üzrə tərəflər arasında mövcud olan razılığın dərinləşməsində maraqlıdır. O, bu razılaşmanı özü uçun həlledici mövzu olan sanksiyaların qaldırılması istiqamətində istifadə etməyə çalışır.

ABŞ-ın razılıq əldə etmək istədiyi ən birinci məqam İranla bağlı olub. Müzakirə üçün ikinci əsas mövzu Mərkəzi Asiyadan və Yaxın Şərqdən uzanan Cənubi Qafqaz və yaxın regiondan keçən nəqliyyat dəhlizi mövzusudur. Bu regionda tərəflər daha çox nəqliyyat dəhlizləri ilə bağlı mübarizə aparırlar. Konkret olaraq deyə bilərik ki, görüşdə razılaşdırılmış məqamlar İran və Mərkəzi Asiya ilə bağlı olub, tərəflərin bu regionda siyasətlərinin uzlaşması kimi başa düşülə bilər. Yəni konkret razılaşmadan söhbət getmir. Sanksiyalar və Suriya məsələsi ilə bağlı isə tərəflər prinsipial mövqelərində qalırlar".

**Ekspert hesab edir ki, dünya nə qədər Trampı qeyri-ciddi siyasətçi kimi qəbul etsə də, onun addımlarında qətiyyətli və öz ölkəsinin maraqlarını üstün tutan prezidentin qərarları sezilir:** "O, daha çox Amerikanın iqtisadiyyatını sağlamlaşdırmağa yönəlik addımlar atır. Eyni zamanda Yaxın Şərq gedişlərindən başqa hal-hazırda Avrasiya səviyyəsində Mərkəzi Asiya və Avropa arasındakı təbii qaz nəqlində birbaşa olaraq Amerikanın rolunun dərinləşməsi Trampın adı ilə bağlıdır. Yaxın Şərqdə isə Əfqanıstan, Pakistan, Hindistan və Türkmənistanın sərhədinə yaxın olan Mərkəzi Asiyada transkontinental qaz xəttinin çəkilməsinin reallaşdırılması isə regionda balansı ABŞ-ın xeyrinə dəyişən bir addımdır".

**Y.Hacıyevanın fikrincə, ABŞ-Rusiya münasibətlərinin gərginləşməsinin Azərbaycan üçün yaxşı və pis tərəfləri var. Yaxşı tərəfi odur ki, belə vəziyyətlərdə hər iki ölkə üçün Azərbaycanın əhəmiyyəti artır. Pis tərəfi odur ki, Azərbaycan bu ölkələrdən hansı ilə nisbətən daha yaxın münasibətlər müstəvisini seçirsə, o biri tərəfin qəzəbinə səbəb olur.**

**ABŞ-İran qarşıdurmasında da Azərbaycanın zərərinə və xeyrinə olan məqamlar var:** "İranın enerji sektoruna tətbiqi nəzərdə tutulan sanksiyalar nəinki Azərbaycan, dünyada enerji ixracatçısı olan istənilən ölkənin mövqeyinin möhkəmlənməsinə təsir edən məqamdır. İranın Hörmüz boğazına nəzarəti bərpa etmək məqsədinin elan edilməsi belə, dünyada enerji və enerji məhsullarının qiymətinin artması ilə nəticələndi. Bunun həyata keçməsi isə əlbəttə, qiymətləri daha da artıracaq addım ola bilər. ABŞ-İran qarşıdurmasından Azərbaycanın əldə edə biləcəyi üstünlüklər tək bununla yekunlaşmır. Digər siyasi məsələlər də var ki, onların həlli gözləntiləri mövcuddur. Onu da qeyd edim ki, söhbət siyasi-iqtisadi qarşıdurmadan gedir.

Azərbaycanın ABŞ-İran arasında siyasi qarşıdırmadan qazana biləcəyi nüanslar var, hərbi qarşıdurma isə bizim üçün, region üçün arzuolunmaz nəticələr verə bilər. Azərbaycan olaraq biz bunu istəmirik".

**Y.Hacıyeva vurğuladı ki, ABŞ-da bir sıra siyasi dairələr Rusiya ilə hər hansı bir yaxınlaşmanın qəti əleyhinədirlər. Trampın ABŞ mediasında hədəfə alınmasında bu məqam rol oynayır.**

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



YENİ MÜSAVAT
N 154 (7033) 19 iyul 2018



# Rebiç ola bilməməyin detalları

Samir SARI

**Belə hadisə bizdə də ola bilərmi? Məsələn, bir idmançı çıxa, kənd-kəsəyinin banklara olan kredit borcunu bir dəfəyə bağlaya... Məncə, ola bilər. Çünki bizdə də səxavətli, ürəkli, comərd adamlar həmişə olub, var, gələcəkdə də olacaqlar.**

Bəzi dostlar əks fikirdədir və özlərinə görə arqumentləri də var, amma bu xüsusda sonra yazarıq.

İndilikdə onu deyək ki, bu işi 2018-ci il mundialında ikinci yeri tutan Xorvatiya millisinin futbolçusu Ante Rebiç edib.

Özü də Rebiç həmin savab işə qol qoyandan sonra çıxıb brifinq keçirməyib, telekameraların önündə özündən razı halda, süni təvazökarlıqla "bəli, mən kəndçilərimin bütün borclarını ödədim" deməyib.

Bu sirrin üstünü onun sabiq komanda yoldaşı Lovro Sindik açıb. Lovro mediaya deyib ki, Rebiç bu addımı mundialdan öncə atıb - yəni gümüş medal və dünya şöhrəti qazanmazdan qabaq.

Müvafiq informasiyada Rebiçin Split şəhəri yaxınlığındakı kiçik kənddə böyüdüyü qeyd olunur. Amma ardınca bildirilir ki, "o, bu kəndin bütün 500 sakininin kredit borcunu bağlayıb".

"Kiçik kənd" hara, "500 sakin" hara? Kiçik kənd 50-60 evdən ibarət olan yaşayış məntəqələrinə deyirlər, 500 nəfər yetkin (bankdan kredit götürməyə yaşı çatan) adamın yaşadığı yer isə böyük kənddir, az qala qəsəbədir.

Söz yox ki, kənd adamlarının bankdan götürdükləri kreditlər kiçik, 300-500 dollarlıq məbləğlər olub, amma söhbət 5-6 adamdan getmir axı, 500 nəfərdən gedir. Deməli, Rebiç o qədər adamın kreditinin bağlanmasına bir ətək pul verib. Həm də o, pulu havayı yerdən, asanca qazanmayıb, nə qədər tər tökürb, ayağına, dizinə, üzünə təpik, böyrünə dürtmə ala-ala, yaşıl meydançada dəfələrlə döşəli qala-qala qazanıb.

Yəqin ki, ailəsindən və yaxın qohum-əqrəbasından başqa o kənddə Rebiçin üstündə haqq-sayı, əməyi, zəhməti olan bir kimsə olmayıb. Dolayısı ilə o, bu alicənablığı etməyə də bilərdi. Amma edib və əvəzində çox şey qazanıb: kəndçilərinin alqışını, ölkə miqyasında hörmət, dünya çapında təqdir... Üstəlik, yaxşı oğlan adı. İndi o, daha çox pul qazanacaq... Futbol tarixində də qalacaq.

Yenə o fikirdəyəm ki, bizdə də Rebiç kimi comərd, elcanlı, xeyriyyəçi oğlanlar var.

Sadəcə, o cür açıqürəkli oğlanlar futbolçu deyillər, "Ayntraxt"da oynayıb, dünyanın parasını qazanmırlar.

Bəs "Ayntraxt"da oynamasalar da, dünyanın parasını qazanan futbolçularımız da var axı...

Hə, var. İntəhası, onlar da Rebiç kimi "kiçik kənd"d doğulmayıblar, böyük qəsəbədə, şəhərdə doğulublar və krediti olan həmyerlilərinin sayı 500-lə məhdudlaşmır, bəlkə də 5 mindən çoxdur, bir futbolçu o qədər krediti necə bağlasın?

Həm də o, bunu niyə etsin? Adam yadına salacaq ki, bu futbolçu karyerasına yeni başlayanda camaat ona necə lağ edir, ələ salır, kinayə ilə "bala Ronaldinyo" deyir, sonra "oyunçuluğunu demirəm ey, qaralıqda eynisiniz" deyə ələ edib irişir, ortalıqdakı kəndçilər də ona qoşulub hırıldaşırdılar. Bu tip şeyləri yadına salan hansı futbolçu atılıb banka gedər ki, kəndçilərimin kredit borcunu bağlayacam?

Hələ bu kimi məsələlərdə yaxın qohumlar amili var. İstənilən adamın N qədər əmioğlusu, bibioğlusu, dayıoğlusu, xaloğlusu, bir o qədər də zərif cinsə aid qohumu olur. Hamısı da yetkin, hamısı da bankdan kredit götürəcək yaşda və ehtiyacda... Yazıq futbolçu təkcə öz qohumlarının kredit borcunu bağlasa müflis olar, özü borca düşər.

Daha bir məsələ isə belə səxavətli futbolçunun dərhal tamahkar məmurların lupasının altına düşməsidir. Adamı təqibə alarlar. İlk fürsətdə çəkərlər içəri, deyərlər, "Bill Qeyts-zadsan, əə, kredit bağlayan çıxmısaaan? Belə bomba oğlansansa, 50-60 min də qoy stolun üstünə, qonağımız-qaramız olur".

Hələ "səxavətli futbolçu"nun kriminal ünsürlərin diqqətini cəlb etməsi təhlükəsi də var. Braziliyadakı kimi anasını girov götürməsələr də, gecə evini yaracaqlar.

Bizim comərd futbolçunu Rebiç olmağa qoymayan səbəblər bununla bitmir. Adamın adı çıxınca, qonşu kəndlərdəki, rayonlardakı kredit borcu olanlar da tökülüşəcək onun üstünə ki, bizim borclarımızı da ödə, ehtiyac içindəyik. Beləcə, adam gecə ilə ölkədən qaçacaq.

Dediyim odur ki, Rebiç qədər əliaçıq olmaq mümkündür, amma Rebiçlik edib arxasında durmaq çətindir.

Ona görə də bizim futbolçular (eləcə də o biri idmançılar) pullananda kreditə 250-500 min manatlıq maşınlar alırlar, eləcə öz kreditlərini bağlayırlar.

---

**Azərbaycanda son bir ildə 41 saxta din xadimi aşkarlanıb. Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu günlərdə mətbuata açıqlamasında bildirib. Qurum sədri qeyd edib ki, 2017-2018-ci ilin may ayınadək komitənin mərkəzi aparatı və bölgə əməkdaşları tərəfindən Azərbaycan İnzibati Xətalar Məcəlləsinin müxtəlif maddələri ilə həmin şəxslər barəsində protokol tərtib edilərək müvafiq qərar çıxarılması üçün aidiyyəti məhkəmələrə göndərilib.**

# Saxta dindarları kim və necə müəyyənləşdirir...

## Komitə rəsmisi: "Özünü din xadimi kimi qələmə vermək və ayinləri icra etmək də qeyri-qanunidir"



Tərtib edilən protokollardan 35-i əsasında məhkəmə tərəfindən inzibati məsuliyyətə cəlb olunmaları barədə qərar çıxarılıb (**1 protokol barəsində isə şifahi xəbərdarlıq olunub**), 6-sına xitam verilib, həmin protokollar nəticəsində ayrı-ayrı şəxslərə ümumilikdə 52 950 manat cərimə tətbiq edilib.

Bəs saxta dindar dedikdə kimlər nəzərdə tutulur? Dindarların saxta olub-olmaması necə müəyyən edilir?

**Mövzu ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə "Yeni Müsavat"a açıqlama verib:**

"Müstəqilliyimizi qazandıqdan sonra din sahəsindəki kadr çatışmazlığının aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Ali təhsilli kadrların yetişdirilməsi üçün Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı İslam Universiteti və Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi açılıb. Ölkə prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi onun strukturuna daxil edilib. Eyni zamanda orta ixtisas təhsilli kadrların yetişdirilməsi məqsədilə 2017-ci ildə 10 İslam kolleci yaradılıb. Bununla da din sahəsində yerli kadrların hazırlanması potensialı artırılmaqla yanaşı milli və dini təhlükəsizliyin qorunması istiqamətində mühüm addımlar atılıb. Yeri gəlmişkən, qeyd etməliyik ki, din xadimlərinin peşəkarlıq səviyyəsinin müəyyən edilməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) iştirakı ilə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən mütəmadi olaraq attestasiya keçirilir. Attestasiyada müvəffəqiyyət qazanmış şəxslər QMİ tərəfindən ölkədəki məscidlərə imam, imam müavini və mütəvəlli təyin olunurlar. 2018-ci ilin aprelində isə rəsmi statusa malik din xadimlərinə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən maddi dəstək verilir".

**Cahandar Əlifzadə hansı din xadimlərinin İslam dininə aid ayin və mərasimlərə buraxıla biləcəyindən də söz açıb:**

"Bu məsələyə gəlincə, bu anlayış və onun fəaliyyəti istiqaməti, ümumiyyətlə, peşəkar dini fəaliyyətlə bağlı normalar "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapıb. Belə ki, qanunun 4-cü maddəsinə əsasən peşəkar dini fəaliyyət dini tərbiyəyə və dini təhsilə, dindarların dini tələbatının ödənilməsinə, dinlərin yayılmasına, dini ayinlərin icrasına, moizələrin (xütbələrin) oxunmasına, dini qurumun inzibati və təşkilati idarəetməsinə yönəlmiş fəaliyyət növüdür. Din xadiminin isə peşəkar dini fəaliyyətlə məşğul olan dini ali və orta ixtisas təhsilli şəxs olduğu açıq şəkildə bəyan edilib. Həmçinin qanunun 2-ci maddəsinin III abzasında bu məsələ daha da konkretləşdirilib. Burada İslam dininə aid ayin və mərasimlərin aparılmasının yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə biləcəyi, xaricdə dini təhsil almış Azərbaycan Respublikası vətəndaşları Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla İslam dininə aid ayin və mərasimlərin aparılmasına buraxıla bilinəcəkləri qeyd olunub.

Qanunun bu müddəalarının həyata keçirilməsinə nəzarət məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar (İXM) və Cinayət Məcəlləsində (CM) maddələr öz əksini tapmışdır. İXM-in 515-ci maddəsi (Dini qurumların yaradılması və fəaliyyət qaydasının pozulması) və CM-in 168-1-ci maddəsinə görə (Dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozma) "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması inzibati məsuliyyətə səbəb olur və cinayət tərkibi yaradır".

**Komitə əməkdaşı 41 saxta din xadimi məsələsi haqqında isə bunları bildirib:** "2017-2018-ci ilin may ayına kimi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mərkəzi Aparatı və bölgə əməkdaşları tərəfindən ümumilikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (İXM) müxtəlif maddələri ilə ümumilikdə 41 protokol tərtib edilərək müvafiq qərar çıxarılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmin protokollardan 34-ü İXM-in 515.0.2 maddəsinə, yəni dini yığıncaqlar, yürüşlər və digər dini mərasimlərin təşkilinin və keçirilməsinin qanunla müəyyən edilən qaydaların pozulmasına görə tərtib edilib.

Nəticə olaraq qeyd edirik ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda, o cümlədən digər qanunvericilik aktlarında din xadimləri üçün müəyyən olunmuş normalara zidd dini fəaliyyət qeyri-qanunidir. Eyni zamanda QMİ-nin təşkil etdiyi attestasiyadan keçməmiş və rəsmi olaraq hər hansısa dini vəzifəyə təyin olunmamış, lakin özünü din xadimi kimi qələmə vermək və ayinləri icra etmək də qeyri-qanunidir və bir növ saxtakarlıqdır".

❑ Xalidə GƏRAY, "Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018



# Qarabağda daimi sülhün klassik və dəyişməz şərti

## Ermənistan işğal altındakı əraziləri boşaltmağa başlamayınca, müharibə bitmiş sayılmayacaq; Levon Ter-Petrosyandan Paşinyana mühüm Qarabağ mesajı, "ağsaqqal məsləhəti"

**Ermənistanda 8 may hakimiyyət çevrilişindən sonra Dağlıq Qarabağ ətrafında yaranan və müstəsna olaraq, yeni hökumətin təxribatçı siyasətindən qaynaqlanan təhlükəli situasiya davam edir. Avropaya ilk uğursuz rəsmi səfərindən dərhal sonra növbəti dəfə işğal altındakı Dağlıq Qarabağa gələn Paşinyan həm öz qanunsuz səfəri, həm də sülhü daha əlçatmaz edən növbəti açıqlamaları ilə konfliktin dinc yolla nizamlanmasında maraqlı olmadığını bir daha nümayiş etdirdi.**




Maraqlıdır ki, məhz bu arada N.Paşinyanla ölkənin eks-prezidenti, "Erməni Ümummilli Konqresi" Partiyasının rəhbəri Levon Ter-Petrosyan görüşüb. Görüş Paşinyanın evində baş tutub. Ter-Petrosyanın təşəbbüsü ilə reallaşan görüşdə əsas müzakirə mövzusunun Qarabağ konflikti və Ermənistanın xarici siyasəti məsələsinin olduğu deyilir.

*****

Xatırladaq ki, Paşinyan vaxtilə Ter-Petosyanın rəhbərlik elədiyi qurumda təmsil olunub. Yəni onlar əqidədaş olublar. O vaxt Nikol Paşinyan Qarabağ məsələsində sabiq prezidentin qismən mötədil sayılan mövqeyini, mərhələli həll planını bölüşürdü. Sonradan onların yolları aralandı. İndi isə baş nazir kimi təcrübəsiz və böyük siyasətdə diletant olan Paşinyan Qarabağ məsələsində hətta hakimiyyətdən devirdiyi Serj Sərkisyandan da radikal mövqe sərgiləyir, sərsəm şərtlər irəli sürür. Bu şərtlər isə Bakı tərəfindən qəbul edilməsi mümkünsüz olmaqla yanaşı, Azərbaycanla labüd müharibə deməkdir.

Yaranmış vəziyyətin Ermənistan üçün təhlükəlilik dərəcəsini kim bilməsə də, eks-prezident Ter-Petrosyan təbii ki, dəqiq bilir. Üstəgəl, "məxməri inqilab"dan sonra Nikol Paşinyan xarici siyasətdə, Qarabağ siyasətində nə Qərbdən, nə də Rusiyadan ümid elədiyi ciddi dəstəyi ala bilmir. Ölkə daxilində isə köklü siyasi-iqtisadi islahatlar gözlənildiyindən qat-qat ləng gedir.

İstisna deyil ki, Ter-Petrosyan həm bu, həm də digər məsələlərlə bağlı keçmiş partiyadaşına bəzi "qiymətli ağsaqqal məsləhətləri" verib. O sırada Dağlıq Qarabağ probleminin mərhələli həldən başqa digər dinc həll variantının mümkün olmayacağını keçmiş partiyadaşının diqqətinə çatdırıb. Bu plan Azərbaycan torpaqlarının mərhələli şəkildə azad edilməsini, Dağlıq Qarabağın yekun statusunun isə sonraya saxlanmasını nəzərdə tutur.

"Yeni Müsavat" xatırladır ki, Ermənistanın birinci prezidenti 1998-ci ildə məhz bu plana görə Moskvanın rüsxəti və "Qarabağ klanı"nın (Köçəryan-Sərkisyan tandemi) əli ilə prezident kürsüsündən salınıb. Türkiyə və Azərbaycanla sərhədlər açılmadan Ermənistanın inkişafının qeyri-mümkün olduğunu dəfələrlə bəyan edən Ter-Petrosyan o vaxt belə bir "qanadlı ifadə" işlətmişdi ki, "Qarabağ məsələsi ilə bağlı indi bizə təklif edəni götürməsək, gələcəkdə yalvaracağıq. Çünki Azərbaycan daha da güclənəcək".

*****

Tamamilə mümkündür ki, eks-prezidentlə Paşinyanın söhbətinin qayəsində ilk növbədə həmin "qanadlı ifadə" dayanıb. Ter-Petrosyanın "ağsaqqal məsləhətləri"ndən başqa biri yəqin ki, müharibə riskini azaltmaq yönündə olub. Qeyd edək ki, son vaxtlar erməni baş naziri daxili auditoriyanın diqqətini vəd edilən islahatlardan yayındırmaq üçün tez-tez Qarabağda müharibə qorxusu haqda danışır, orduya hazırlıq əmri verdiyini bildirir. Lakin bu taktika da özünü doğrulda bilmir. Paşinyanın guya hər şeyin nəzarət altında olduğunu bəyan etməsi xüsusilə də erməni mediasında və ekspert cameyəsində birmənalı qarşılanmır.

**Məsələn, erməni şərhçi Qarnik Gevorqyan baş nazirin artıq ikinci dəfə Qarabağla bağlı danışdığına diqqət çəkərək deyib ki, Paşinyan bu mesajlarla cəmiyyəti sakitləşdirməyə çalışır (publika.az):** "Lakin reallıqda Qarabağ cəbhəsində vəziyyət gərgindir. Xüsusilə beynəlxalq platformada da münaqişə ilə bağlı yanaşmalarda təhlükə hiss olunur və bu təhlükə də ilk növbədə Rusiyadan gəlir. Ötən ay Rusiya siyasətçiləri və ekspertlərindən ibarət qrup Azərbaycana baş çəkdi və Lələtəpə hündürlüyündə anti-Ermənistan bəyanatları səsləndirdi. Onlar tezliklə ərazilərin Azərbaycana qaytarılmasını tələb etdilər. Ruslar "Lavrov planı"nı nəzərdə tutur. İyulun 11-də isə Brüsseldə Azərbaycan və Ermənistan XİN rəhbərləri görüşdü. Görüşlə bağlı ATƏT-in Minsk qrupunun bəyanatında ilk dəfə "substantiv danışıqlar" fikri daxil edilib. Bu, Azərbaycanın tələbidir və görünür, beynəlxalq platformada Azərbaycanın tələbləri qəbul edilir".

**Erməni politoloq əmindir ki, rusiyalı ekspertlərin yaxınlaşan müharibədən bəhs etməsi kimi mesajlar da Ermənistanın ictimai rəyinə hesablanıb:** "Yəni əgər yeni müharibə istəmirsinizsə, "mərhələli həll variantına" razılaşın, əraziləri qaytarın. Bu, Rusiyanın istədiyi ssenaridir, lakin həmsədrlərin son bəyanatı Qərbin də bu ssenariyə razı olduğunu göstərir. Hazırda diplomatiya mühüm əhəmiyyət kəsb edir, hərçənd diplomatik korpusun beynəlxalq platformada Ermənistanın əleyhinə olan həll planına qarşı hər hansı fəaliyyət göstərdiyi görünmür".

*****

Ermənistanın diplomatik korpusunun necə fəaliyyət göstərməsindən asılı olmayaraq, bir şey dəqiqdir ki, bütün zamanlar üçün sülhün əsas alternativi müharibə sayılır. Qarabağ məsələsi də istisna deyil, olmayacaq. Başqa sözlə, atəşkəs rejimi uzandıqca əslində sülhün deyil, müharibənin şansı artır. Çünki atəşkəs qısa zamanda barış əldə etmək üçün vasitə sayılır, hədəf yox. Atəşkəs rejimi sonsuzadək uzana bilməz. Onun uzanması müharibənin yaxınlaşması deməkdir.

Əfsus ki, işğalçı tərəf ona - status-kvonun saxlanmasına hədəf kimi baxır, özünü yanlış şəkildə Qarabağ müharibəsinin qalibi kimi hiss edir, Ter-Petrosyanın "qanadlı ifadə"sini unudur: Azərbaycan və Ermənistan 20 il qabaqkı ölkələr deyil, fərqli göstəricilərə malikdir. İşğalçı ölkə geri, Azərbaycan isə xeyli qabağa gedib, düşmən üzərində əzici hərbi üstünlüyünü təmin edib.

Nəhayət, Ermənistan sədə bir gerçəyi unudur ki, işğal altındakı əraziləri boşaltmağa başlamayınca, müharibə bitmiş sayılmayacaq. Qarabağda böyük sülhün əsas və dəyişməz şərti budur, bu da qalacaq...



# İtaliya prezidentindən Qarabağ açıqlaması

**"Bizim Azərbaycanla ikitərəfli və çoxşaxəli münasibətlərimiz bir az bundan öncə imzaladığımız sazişlərlə də bir daha özünü sübut edir. Mən demək istəyirəm ki, İtaliya tərəfi ATƏT-də sədrliyi çərçivəsində də Azərbaycana öz töhfəsini verəcəyini bir daha vurğulayır".**

Musavat.com verir ki, bu fikirləri İtaliya prezidenti Sercio Mattarella iyulun 18-də mətbuata bəyanatında söyləyib.

"İtaliya xüsusən regionda olan problemlərlə bağlı, həmçinin Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı ATƏT-ə sədrlik çərçivəsində öz dəstəyini göstərəcək. Biz istəyirik ki, bu sahə üzrə danışıqların formatlarını dəyişmək əvəzinə, əksinə, regionda təhlükəsizliyi təmin edə biləcək yeni danışıq yolları tapılsın. Çünki bizim fikrimizcə, bu münaqişənin həlli hərbi yolla deyil, siyasi yolla baş verməlidir. Bu həll yolu sabit, uzunmüddətli və beynəlxalq hüquq çərçivəsində olmalıdır", - deyə dövlət başçısı qeyd edib.

Qeyd edək ki, İtaliya ATƏT-in Minsk Qrupunun üzvlərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018

# Gəncə tətikçisini "el qəhrəmanı" edənlərin məqsədi...

**Gəncədə bir qrup təxribatçının törətdiyi hadisələrdən sonra ictimaiyyətdə bəzi çaşdırıcı fikirlər də yayılmışdı. Belə ki, bütün faktlara, detallara və hətta rəsmi açıqlamalara, tutulanların özlərinin ifadələrinə baxmayaraq, bəzi "hüquq müdafiəçiləri", bloggerlər Gəncə olaylarını xarici faktor yox, daxili məsələ kimi təqdim edirdilər. Üstəlik, bəziləri Yunis Səfərovu - Gəncə tətikçisini ilk gündən qəhrəman elan edən, az qala, "tapançalı el qəhrəmanı" adlandıranlar da vardı. Hansı ki, bu cür iddiada olanların çoxu Avropada yaşayan "radikallar"dır.**

Maraqlıdır, belə rəy yaradılması cəhdində məqsəd nə idi?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Qabil Hüseynli** bildirib ki, Gəncədə bir-birinin ardınca baş verən olayları kortəbii və kimlərinsə təşəbbüsünə söykənən hadisə hesab etmir:

"Çünki bu, dəqiq hazırlanmış və öncədən planlaşdırılmış bir iş idi. Bu planda ilk növbədə xarici qüvvələrin izinin olması qənaətindəyəm. Belə hesab edirəm ki, bu olaylarda radikal dini qruplaşmaların təsirini də istisna etmək olmaz. Bunu istintaq aşkara çıxaracaq. Daxildən "beşinci kolon"un da bu işdə əli ola biləcəyi ehtimalını mümkün variantlardan biri hesab edirəm. Lakin aparıcı və bu hadisələri yönləndirən qüvvələrin xaricdən istiqamətləndirilməsi versiyasının daha aparıcı olduğunu düşünürəm. Zənnimcə, daha dəqiq faktları istintaq aşkara çıxaracaq. Ancaq xaricdə olan mühacir qruplaşmalarının da bəllidir ki, ellərində güclü informasiya təbliğatı var. Onun vasitəsilə insanlara təsir etmək qabiliyyətindədirlər. Lakin onların bu silahlı hadisələrdə əlinin ola biləcəyi qənaətində də deyiləm. Çünki bu şəxslərin çağırışları daxildə güclü rezonans doğurmur və daha geniş kütlələrin şüuruna təsir edə biləcək gücdə deyil.



**Qabil Hüseynli:** "Bu planda ilk növbədə xarici qüvvələrin izinin olması qənaətindəyəm"



**Mübariz Əhmədoğlu:** "Həmin qüvvələr Azərbaycana qarşı təxribatlara başlayan zaman, istər-istəməz anti-Azərbaycan fikirli şəxsləri axtarıblar"

Sadəcə, onlar bu hadisədən öz maraqlarına uyğun yararlanmaq cəhdi etdilər".

**Politoloq Mübariz Əhmədoğlu isə hesab edir ki, Qərbdə olan mühacirlər həm də xaricdəki bəzi qüvvələr tərəfindən maliyyələşdirilir:**

"Düşünürəm ki, Mingəçevirdə elektrik qəzası və Gəncə hadisələrində xaricdəki bəzi qüvvələrin iştirakı var. Söhbət qəti şəkildə İran dövlətindən getmir, müəyyən bir təxribatçı qruplardan gedir. Konstitusiyamıza görə, Azərbaycanda bu günlərə prezident seçkiləri təyin olunmuşdu. Belə çıxır ki, əgər seçkilərin tarixi irəli çəkilməsəydi, hazırda ölkədə qarışıqlıq yaratmaq istəyən qüvvələr fəaliyyətə keçəcəkdilər. O zaman düşünün ki, nələr ola bilərdi. Mümkündür ki, xarici qüvvələr daha öncədən bu planı qurublar və prezident seçkilərinin erkən keçiriləcəyini nəzərə almayıblar. İndi də plana uyğun olaraq Azərbaycanda qarışıqlıq yaratmaq istəyiblər. Öncə Mingəçevirdə qəza baş verdi, ardınca da Gəncədə Elmar Vəliyevə qarşı sui-qəsd oldu. Düşünürəm ki, burada ən əsas arqument həmin gün Azərbaycan ordusunun çox orijinal qaydada, modern şəkildə hərbi təlimlərə başlaması idi. Hər kəsdə belə bir fikir var di ki, Azərbaycan ordusu çox güclü bir təlimə başlayıb. Fikirlər dolaşırdı ki, əgər Ermənistan tərəfi Azərbaycan ordusunun hərbi təliminə reaksiya versə, ordumuz təlimdən istifadə edib, işğal olunmuş ərazilərə girəcək. Həmin ərəfədə Rusiyanın deputatları, ekspertləri də Azərbaycana gəlib, Cocuq Mərcanlı kəndində dəmirdilər ki, Dağlıq Qarabağ və ətraf rayonları Azərbaycana məxsusdur və ermənilər bu ərazilərdən çıxmalıdırlar. Bu hadisədən bir qədər öncəyə nəzər salsaq görərik ki, ABŞ prezidenti Donald Tramp da İlham Əliyevə məktub göndərib, Dağlıq Qarabağla bağlı dəyişikliyin olacağını bildirmişdi. Tramp konkret fikirlər söyləmişdi. Bütün bu siyasi gedişlərin fonunda isə yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan ordusu hərbi təlimlərə başlamışdı. Bu isə belə bir təəssürat yaradırdı ki, torpaqlarımız işğaldan azad olunacaq. Bunu İranda olan müəyyən qruplar həzm edə bilməzlər. Həmin qrupun üzvləri Dağlıq Qarabağın işğaldan azad olunmasını faciə kimi qəbul edirlər. Ona görə də bu cür hadisələr başladı. Həmin qüvvələr Azərbaycana qarşı təxribatlara başlayan zaman, istər-istəməz anti-Azərbaycan fikirli şəxsləri axtarıblar. Onlar üçün fərq etmir ki, bu adamlar Azərbaycan ərazisindədirlər, yoxsa hansısa Avropa ölkəsində. Yalnız onlar ABŞ-da yaşayan və Azərbaycan əleyhinə olan qüvvələrlə iş görə bilmirlər. Lakin İrandakı müəyyən qrupun Avropadakı azərbaycanlılarla Azərbaycanın əleyhinə iş görməsi ilə bağlı çoxsaylı faktlar var. Rusiyadakı azərbaycanlılara qarşı da bu, belədir. Gürcüstandakı azərbaycanlıların da bir qismi bu cür xarici qüvvələr tərəfindən idarə edilə bilir. Son zamanlar Gürcüstanın Azərbaycandan incik düşməsinə səbəb də bu kimi qüvvələrin apardığı işlərdir. Gəncədə çox ciddi şəkildə təxribat aparılması üçün hazırlıq görülmüşdü. Ancaq onlar bu istəklərinə nail ola bilmədilər".

**Politoloq bildirib ki, bəzi şəxslər bilərəkdən məsələni daxili hadisə kimi xarakterizə edirlər:** "Onlar istəyirlər ki, məqsədlərini gizlətsinlər və hadisəni daxili məsələ kimi göstərsinlər. Ümidləri də budur ki, onları himayə edən şəxslər yenə də hansısa plan quracaq və hərəkətə keçəcək. Mümkündür ki, onlar yenə də plan üzərində işləyib, hansısa təxribata cəhd etsinlər. Ancaq Azərbaycan dövləti güclüdür və bütün bunların qarşısını alaraq, qalib çıxacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Bu kimi xain planlar fiaskoya məhkumdur"

## Nəzakət Məmmədova: "Baş verənlər Azərbaycan dövləti üçün növbəti bir sınaq idi"

**Gəncədə baş verən son olaylarla bağlı politoloq Nəzakət Məmmədova maraqlı açıqlamalar verib. Politoloq deyir ki, Cənubi Qafqazda regionun strateji resurslarına nəzarət və nüfuz dairəsi uğrunda regional və qlobal səviyyədə rəqabət davam edir: "Bu kontekstdə yeni müstəqil dövlətlərin inkişafı və ya əksinə, Ermənistan nümunəsində olduğu kimi, tənəzzülü prosesi müşahidə olunur".**

Politoloq deyir ki, Azərbaycanda baş verən son olaylar göstərdi ki, ölkəmizin müstəqil siyasəti şimaldan və cənubdan imperiya təfəkkürü ilə planlar quran bəzi dairələrin ürəyincə deyil: "Azərbaycan heç bir gücə tabe olmayaraq müstəqil qlobal enerji və nəqliyyat-kommunikasiya siyasəti yeridir. Bu siyasət beynəlxalq aləmdə təqdirəlayiq addım hesab olunur, eyni zamanda dövlətimizə qarşı olan davamlı hücumları artırır. Biz ümid edirdik ki, dövlətə qarşı silahlı qiyam, terror-təxribat, kəşfiyyat-pozuculuq cəhdləri 1993-95-ci illərdə qaldı. Lakin son hadisələr göstərdi ki, 2018-ci ildə belə bəzi qüvvələr ölkəmizə qarşı diplomatik demarş müstəvisindən fəal kəşfiyyat, təxribat-pozuculuq müstəvisinə keçə bilərlər. Bu, Azərbaycan dövləti üçün növbəti bir sınaq idi. Lakin xarici dairələr öz istəklərinə çata bilmədilər və onların planları növbəti dəfə iflasa uğradı. Çünki Azərbaycan müasir beynəlxalq münasibətlər sisteminin, sivil dünyanın bir hissəsidir, dövlətçiliyin əsasları xeyli möhkəmlənib, ölkənin beynəlxalq nüfuzu artıb, ərazi bütövlüyünü bərpa etmək imkanları xeyli yüksəlib. Son Brüssel tədbirlərində NATO və Avropa Birliyinin münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə dair yenidən öz mövqelərini ortaya qoyması bu ümidləri artırır".



**Nəzakət Məmmədova Azərbaycanın öz geosiyasi mövqeyinə və təbii resurslarına görə dünyanın ən unikal ölkələrindən biri olmasına diqqət çəkərək fikirlərini belə davam etdirir:** "Təəssüf ki, müasir dünyada suverenlik anlayışı çox zaman kağız üzərində qalır, bəzi dövlətlər tarixdəki imperiya illüziyalarına qapanaraq hələ də qonşu ölkələrə öz keçmiş müstəmləkəsi və potensial nəzarət edə biləcəyi ərazilər kimi baxırlar. Azərbaycanın son 25 ildə apardığı siyasət bir çox xarici dairələrin bu arzularının üstündən xətt çəksə də, onlar hələ də "bəlkə də qaytardılar" ümidləri ilə məkrli planlar qururlar. Bzejinskinin bir sözü var idi, deyirdi ki, bəzi ətyeyən heyvanlar ət yemədən yaşaya bilməyəcəyi kimi, bəzi dövlətlər də imperiya olmadan yaşaya bilməz. Doğrudur, o, bunu deyərkən ABŞ-ı yox, onun düşmən ölkələrini, bizim şimal və cənub qonşularımızı nəzərdə tuturdu. Amma düşünürəm ki, başqa dövlətlərin ərazisini nəzarətə almaq, xalqlarını özünə tabe etmək kimi neoimperializm təfəkkürü bir çox böyük dövlətlərdə var və müasir dünyada baş verən bütün müharibələrin, iğtişaşların səbəbi məhz bu yanaşmadır. Azərbaycan öz siyasətini beynəlxalq hüquqa uyğun qurur, konstruktiv xarici siyasət yeridir. Baxmayaraq ki, indiki bir çox qonşu ölkələrin ərazisi tarixən Azərbaycana məxsus olubdur, lakin biz bu iddiaları qaldırmırıq. Gəncə olayları sübut etdi ki, bəzi məkrli qüvvələr Azərbaycanda yenidən qarışıqlıq yaratmaq, xalqımızın azad iradəsinin ifadəsi olan dünyəvilik prinsipini aradan qaldıraraq yerində müasir dünyanın tələblərindən uzaq olan din pərdəsi altında müəyyən zərərli ideologiyaları bərqərar etmək istəyirlər. Lakin Azərbaycanda belə ideologiyalar üçün heç bir zəmin yoxdur, onu yaratmaq cəhdləri də iflasa məhkumdur. Gəncə isə Azərbaycanın fəlsəfi fikir tarixinin beşiyidir, buradakı insanlar ziyalı, açıq dünyagörüşlüdür və bu, əsrlərdir davam edir. Odur ki, bu cəhdlər fiaskoya uğrayacaq. Buna cəhd edən ölkələr özləri beynəlxalq sanksiyalarla üzləşib, öz mövcudluqlarını indiki sərhədləri daxilində qoruyub saxlamaları sual altındadır. Belə bir şəraitdə Azərbaycanı hədəf seçmək çox düşünülməmiş bir plan idi. Azərbaycan region ölkələri arasında ən fəal konstruktiv xarici siyasət yeridən ölkədir, beynəlxalq nüfuzu çox yüksəkdir. Son Brüssel görüşlərində də həm NATO, həm Avropa Birliyi bunu bir daha təsdiq etdi. Belə bir dövlətə qarşı orta əsr imperiya, din, mövhumat düşüncəsi ilə yanaşmaq iflasa məhkumdur. Çünki sivilizasiyaya, dünyəviliyə qarşı alternativ plan ortaya qoyula bilmirsə, o planlar fiaskoya məhkumdur. Son olaylarda da bunun bir daha şahidi olduq".

❑ **E.HÜSEYNOV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 154 (7043) 19 iyul 2018

**Rusiya ordusu Putin və Tramp arasında Helsinki görüşündə əldə olunan beynəlxalq təhlükəsizliklə bağlı anlaşmanı icra etməyə hazırdır. Bu barədə Rusiya Müdafiə Nazirliyinin sözçüsü İqor Konaşenkov mətbuata açıqlama verib. Bu anlaşma iki ölkənin müvafiq qurumlarının Suriyada da əməkdaşlığına şamil oluna bilər.**

# Tramp-Putin görüşündə Suriya müharibəsi razılaşdırılıb?

## Bəşər Əsədin cənubdan sonra İdlibə, yoxsa kürdlərə qarşı yönələcəyi yaxın günlərdə bəlli olacaq

Ancaq bilindiyi kimi, Helsinki görüşündə Suriya məsələsi ilə bağlı hər hansı uzlaşmadan söhbət açılmayıb. Helsinki görüşündən bir neçə gün əvvəl isə Suriyanın cənubunda hökumət qüvvələri Dəra və ətraf bölgələri, o cümlədən İordaniya sərhədlərini nəzarətə götürüb. Doğrudur, Dəranın taleyi ilə bağlı hələ yazda Lavrovun Əmmana səfəri zamanı ABŞ və İordaniya rəsmiləri ilə razılıq əldə olunmuşdu. Daha sonra ruslar İsraili də Suriyanın cənubu ilə bağlı razı saldılar.

Hər nə qədər İranın yardımları, təşkil etdiyi döyüşçülər Bəşər Əsəd üçün böyük dəstək olsa da, savaşın taleyini önəmli ölçüdə dəyişən, faktiki olaraq Bəşər Əsədi yenidən Suriya üzərində hakimə çevirən Rusiyanın hərbi və siyasi-diplomatik dəstəyi oldu.

İndi isə Dəra regionu azad edildikdən sonra Bəşər Əsədin hara yönələcəyi sualı aktuallaşır. Doğrudur, hələlik İsrail sərhədində Quneytra bölgəsində döyüşlər davam edir və ehtimal ki, kiçik ərazi yaxın günlərdə azad ediləcək. Çünki Bəşər Əsəd və Rusiya qüvvələrinin həyata keçirdiyi sərt təzyiq metodlu əməliyyatlar müxaliflər üçün çıxış yolu qoymur. Ancaq indi gündəmin əsas sualı budur ki, Bəşər



Əsəd cənubdan sonra İdlibə, Türkiyənin üstünə, yoxsa Deyr əz-Zor və Hasakedəki amerikalıların üzərinə yönələcək?

Məsələ ondadır ki, Suriyanın şimalında müxaliflərin nəzarətində olan İdlib vilayətində müxtəlif qruplaşmalar yerləşib. Bunların sırasında Türkiyənin dəstəklədiyi Azad Suriya Ordusu, o cümlədən Heyət Təhrir əş-Şam, hətta İŞİD-in belə gizli qrupları var. Ancaq Astana razılaşmasına əsasən İdlibdə atəşkəsə Türkiyə nəzarət edir. Bölgənin nəzarəti Türkiyədədir. Yeri gəlmişkən, bir neçə gün əvvəl Ərdoğan və Putin telefon danışığı zamanı İdlibdəki vəziyyəti müzakirə edib, Ərdoğan İdlibdə Suriya qoşunlarının əməliyyatlara başlayacağı təqdirdə Moskva-Ankara əməkdaşlığına təsir edəcəyini bildirib.

Əsədin əməliyyat keçirəcəyi ikinci ünvan isə kürdlərin və amerikalıların nəzarət etdiyi şimal-şərq rayonlarıdır. Əsədin bu bölgəyə hücum etməsi həm də amerikalılarla toqquşması anlamına gələcək. Yeri gəlmişkən, fevralda belə bir toqquşma olub və ruslar ağır itki veriblər. Bu mənada Dəməşqin amerikalılarla açıq savaşa girməsi risklidir.

O cümlədən bu günlərdə məlum olub ki, kürdlər mərkəzi hökumətlə danışıqlar aparmaq üçün danışıqlar heyəti hazırlayır. Mayın əvvəlində Bəşər Əsəd kürdlərə danışıqlar təklif edib. Kürdlər də bu təklifi müsbət qarşılayıb.

Bu isə o deməkdir ki, cənubdakı işlərini bitirdikdən sonra Bəşər Əsəd İdlibə yönələcək. Qeyd edək ki, İdliblə yanaşı bu bölgədə "Fırat Kalkanı" əməliyyatı ilə azad edilmiş bölgələr, eləcə də "Zeytin Dalı" əməliyyatı ilə azad edilmiş Afrin rayonu da var. Bu iki bölgə Türkiyə ordusunun nəzarəti altındadır. İdlibdə isə Türkiyə ordusu atəşkəsə nəzarət edir. Həmçinin müttəfiq qüvvələri var. Hələlik İdlibə əməliyyat keçirmək üçün hər hansı formal səbəb yoxdur. Ancaq İdlibdə İŞİD tərəfdarlarının həyata keçirdiyi sui-qəsdlər, eləcə də Rusiya bazalarına İdlibdən qalxan PUA-ların yaxınlaşması və İdlibdəki yeganə şiə qəsəbəsi olan və Bəşər Əsəd qüvvələrinin nəzarətində olan Fua qəsəbəsinə hücum hazırlığı atəşkəs razılaşmasını pozmaq üçün əsas verə bilər.

Hələliksə Bəşər Əsəd qüvvələri cənubda irəliləyir. Ancaq ehtimal ki. cənubdan sonra qoşunlar şimala doğru hərəkət edəcək. Bu zaman seçimin İdlib, yoxsa kürd bölgələri olmasını da zaman bəlli edəcək. Bu mövzuda Putin və Trampın danışmaması isə inandırıcı deyil.

**Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Tramp NATO-nu dağıda bilməz, çünki...

## Şahin Cəfərli: "Son sammitdən sonra NATO daha da güclənəcək"

**Sonuncu NATO sammitində Trampın Avropa liderlərinə "hücumu" müxtəlif yozumlara səbəb oldu. Xüsusən də Avropa ölkələrinin Rusiya ilə əməkdaşlığını davam etdirməsi faktını qabarıq şəkildə bəyan eləməsi, Vaşinqtonun NATO "yükünü" təkcə çəkməsi ilə bağlı çıxışları NATO-nun gələcək taleyinin sual altında olması ilə bağlı şərhlərə səbəb oldu.**

Doğrudanmı ABŞ administrasiyası NATO-nu ləğv edə bilər? Bu baş verərsə, dünyada nələr dəyişə bilər?

**Siyasi şərhçi Şahin Cəfərli** deyir ki, ABŞ-ın NATO-dan imtina etməsi mümkün deyil, əksinə, təşkilatın daha da gücləndirilməsi planları var: "NATO illərin sınağından çıxmış, "soyuq müharibə" zamanı Varşava Paktı ilə qarşıdurmanı 1 güllə atmadan qazanmış, yarandığı gündən indiyə qədər özünü kifayət qədər doğrultmuş hərbi-siyasi blokdur. NATO həm bəşər tarixinin ən uğurlu hərbi ittifaqı, həm də ABŞ-ın ən mühüm geosiyasi layihəsidir. NATO ABŞ-ın beynəlxalq siyasətində çox mühüm yer tutan, Vaşinqtonun Avropa işlərində iştirakını təmin edən və onun qlobal liderliyində lokomotiv rolu oynayan təşkilatdır. ABŞ belə bir vacib alətdən niyə imtina etsin? Əksinə, NATO bu gün növbəti transformasiyasını yaşayır və dirçəliş mərhələsindədir".



**Ş.Cəfərli deyir ki, SSRİ-nin dağılmasından, yəni düşmən yox olduqdan sonra bu təşkilatın öz mövcudluğunu davam etdirməsinin nə dərəcədə məqsədəuyğun olduğu barədə diskussiyalar başlasa da, əvvəlcə beynəlxalq terrorizm təhdidinin ortaya çıxması, daha sonra isə Rusiyanın revanşist siyasəti və öz maraqlarını reallaşdırmaq üçün güc tətbiqinə əl atması göstərdi ki, transatlantik ittifaqın davam etməsinə ehtiyac var:** "NATO-ya "soyuq müharibə"dən sonra ehtiyacın yenidən artması istər ABŞ-da, istərsə də Avropada qəbul edilir. Sadəcə olaraq, bu gün NATO-nun taleyi ilə bağlı sualların yaranmasının yeganə səbəbi odur ki, təşkilatın lider ölkəsində ittifaqlara, qlobalist mahiyyətli birliklərə soyuq baxan Donald Tramp kimi şəxs iqtidara gəlib. Tramp bütün məsələlərə ticarətçi, iş adamı təfəkkürü ilə yanaşır. O, seçki kampaniyası dövründə NATO-ya isti baxmadığını gizlətmirdi. Prezident kreslosuna əyləşdikdən sonra isə NATO-nun yükünü təkcə ABŞ-ın çəkə bilməyəcəyini və digər üzv dövlətlərin də hərbi xərclərini artırmasının zəruriliyini vurğulamağa başladı".

**Ekspert deyir ki, Brüssel sammitində Trampın NATO ilə bağlı sərt çıxışı ən yaxşı halda blefdir, çünki bu barədə Trampın özü təkbaşına qərar verə bilməz:** "Alyansın son Brüssel zirvəsində Tramp Almaniya başda olmaqla, bəzi müttəfiqlərə sərt tənqidlər ünvanladı, hətta məlumat yayıldı ki, qapalı müzakirələrin birində Tramp müttəfiq ölkələri ABŞ-ın NATO-dan çıxa biləcəyi ilə hədələyib. Lakin Trampın bu hədələrinin blef olduğunu hər kəs bilir. Əvvəla, hərbi xərclərin artırılması ilə bağlı qərar hələ Obama dövründə - NATO-nun 2014-cü ildə Uelsdə keçirilmiş sammitində qəbul olunub və bütün üzv dövlətlər hərbi xərclərini ÜDM-in 2 faizi həcminə çatdıracaqlarına dair öhdəlik götürüblər. Yəni bu məsələ hələ Trampdan əvvəl aktual idi və müvafiq qərar qəbul olunmuşdu. Digər tərəfdən, Tramp özbaşına NATO kimi mühüm qurumdan çıxmağa qərar verə bilməz. Tramp son vaxtlar ABŞ-ın ənənəvi siyasətindən kənara çıxmağa, sistemi silkələməyə başlasa da, onu tormozlayan, özbaşına qərar verməsini əngəlləyən institutlar var. ABŞ dövlət aparatı, xüsusən Konqres imkan verməz ki, prezident öz şəxsi qərarı əsasında dövlətin on illər boyu formalaşmış strateji kursuna zidd addımla atsın».

**Şahin Cəfərlinin fikrincə, "NATO-nun daha da güclənməsi gözlənilir:** "NATO yaşamağa və genişlənməyə davam edəcək. Brüssel zirvəsində Makedoniya 30-cu üzv qismində ittifaqa dəvət olundu. Bu onu göstərir ki, Monteneqronun qəbulundan sonra alyans Balkanlarda yayılmağa davam edir. Prioritet məhz bu regiondur. Sonrakı genişlənmə Bosniya-Herseqovinanı da içinə aldıqdan sonra sıra postsovet məkanına gələcək. ABŞ bu prosesin bayraqdarıdır".

**Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

**Son günlərin əsas hadisələri sırasında Türkiyədə Adnan Oktarın həbs edilməsi də var. Bu iş üzrə aparılan əməliyyatlar hər gün daha bir ilginc məlumatları, faktları ortaya çıxartmaqdadır. Xatırladaq ki, ötən həftə "hoca" və onun 200-dən çox tərəfdarı hüquq-mühafizə orqanlarının apardığı əməliyyat zamanı saxlanılıb.**

# Adnan Oktar dosyesi - İsrail agenti, masson, şizofren xəstəsi...

## Əxlaqsızlıq yayan "hoca" bu dəfə də həbsdən qurtula biləcəkmi?

Türk polisinin keçirdiyi əməliyyat zamanı Adnan Oktar və onun tərəfdarları əvvəlcə müqavimət göstərib. Nəticədə Adnan Oktarın İstanbulun Çəngəlköy rayonundakı evinin yaxınlığına helikopterlər cəlb olunub. Daha sonra müqavimətə tab gətirə bilməyən "hoca" və tərəfdarları həbs edilib. Əməliyyat zamanı onun evindən çoxlu sayda silah-sursat, zirehli geyimlər, avtomobil, qəfəslərdə saxlanılan bahalı köpəklər müsadirə edilib.

"Hoca" və tərəfdarlarına qarşı azyaşlı qızlara təcavüz, çirkli pulların yuyulması, cinayət dəstəsi təşkil etmək, siyasi casusluq, təhdid və şantajla bağlı ittihamlar irəli sürülüb.

Qeyd edək ki, Adnan Oktar deyərkən türkiyəlilərin göz önünə Esma Özgül, Beyza Bayraktar, Seçkin Piriler, Tuğça Doras kimi gözəllər gəlir. O, Türkiyədə açıq-aşkar hərəmxana saxlayan yeganə şəxslərdən biri idi. Bu hərəmxanada Afrika, Hindistan, türk, slavyan, erməni, gürcü, çərkəz, çin gözəlləri var idi. Bu gözəllərin əhatəsində Adnan Oktar özünü əsl türk sultanı kimi aparırdı.

Bəs "kediciklər"in sevimlisi, məşhur "hoca" Adnan Oktar kimdir? "Hoca"nın əsl adı nədir?

Türkiyə mətbuatında bildirilir ki, əsl adı Adnan Arsanoğulları olan Adnan Oktar 1956-cı ildə Ankarada dünyaya gəlib. Hələ kiçik yaşlarından atasını itirən Adnan Oktar orta məktəbi də Ankarada başa vurub. Daha sonra İstanbul Dövlət Gözəl Sənətlər Akademiyasında memarlıq bölümünə daxil olur. Lakin az keçməmiş akademiyadan ayrılıb. Bunun ardından isə İstanbul Universiteti ədəbiyyat fakültəsi fəlsəfə və tarix bölümünə daxil olur və bu təhsilini də tez bir zamanda yarımçıq qoyur.

Ali təhsil ala bilməyən Adnan Oktar Harun Yəhya imzası ilə kitablar yazmağa başlayır. Onun düşüncəsinə görə, təkamül materializm, buddizm və kommunizmlə əlaqəli satanik bir tədrisdir.

**Adnan Oktar hərbi xidmətdən necə yayına bilib?**

Türkiyə Adnan Oktarla bağlı araşdırmalar apararkən məlum olub ki, "hoca" hərbi xidmətə getməyib. O da hər kəsə məlumdur ki, Türkiyə kimi dövlətdə məşhurlar belə hərbi xidmətdən yayına bilmir. Bəs necə olub ki, Adnan Oktar hərbidən yayınıb?

Qeyd edək ki, bir müddət əvvəl "hoca"nın şizofrenik olduğu barədə iddialar yayılmışdı. Lakin Adnan Oktar qətiyyətlə bu iddiaları rədd etmiş, ona böhtan atıldığını demişdi. Araşdırmalar isə bunun doğru olduğunu sübut edib. Belə ki, araşdırmalara görə, o, 1988-ci il 4 mart tarixində Gülhanə Hərbi-Tibb Akademiyasından "əsgərliyə yararlı deyil" raporunu alıb və hərbi xidmətə getməyib. Ona ən ağır psixi xəstəlik olan "paranoid şizofreni" xəstəliyi diaqnozu qoyulub.

Bu raporu aldığı üçün 1997-ci ildə polis tərəfindən saxlanılsa da, sonradan "psixi xəstələrə cəza verilmir" qərarı əsas gətirilərək azadlığa buraxılıb. Bu səbəbdən iddialar var ki, Adnan Oktar həmin raport ilə bu dəfə də həbsdən yayına biləcək...





1999-cu ildə daxili işlər naziri Sadetdin Tantanın rəhbərliyi ilə aparılan əməliyyat zamanı Adnan Oktar yenidən həbsə alınır. Bu dəfə o, 19 ay həbsdə qalır. Tantan onun haqqında belə demişdi: **"Bu şəxs Abdulla Öcalandan da təhlükəlidir".**

Adnan Oktar isə həmin günləri belə xatırlayıb: **"Ayağıma zəncir bağlanılaraq hücrələrə salındım. Sonra da Bakırköydəki dəlixanaya göndərilərək ən təhlükəli ruhi xəstələrin olduğu "14A" blokuna atıldım. 300 ən təhlükəli ruhi xəstənin olduğu bir yerdə aylarla qaldım. Orada ikən 7 cinayət və qətl hadisəsi baş verdi. Məni bir neçə dəfə öldürməyə çalışdılar. Həbsxana ilə dəlixanalarda 19 ay yatdıqdan sonra məhkəmənin qərarı, həmçinin həkimlərin yoxlanışından sonra sağlam olduğum ortaya çıxdı. Gülhanə Hərbi-Tibb Akademiyasının barəmdə xüsusi qərarı mövcuddur. Həbs zamanı mənə çox sayda naməlum iynələr vurmuşdular".**

**Təcavüzə uğrayan "imam bacılar", təcavüzkar "imam qardaşlar"...**

"Adnan Oktar işi"ndə əməliyyatlar davam etdikcə ilginc faktlar ortaya çıxmaqdadır. Belə ki, "turnike sistemi" kimi tanınan təcavüz silsiləsi məlum olub. Maraqlıdır ki, daha çox imkanlı ailədən olan, ali təhsilli, gözəl qızlar bu silsiləyə cəlb edilib. Qızlar əvvəlcə lüks həyatda yaşadılır, villalarda yerləşdirilirlər. Bir müddət sonra isə şəbəkə üzvləri tərəfindən təcavüzlərə məruz qalıb, cinsi köləyə çevrilirlər. Şəbəkə üzvləri qızları psixoloji olaraq özlərindən asılı vəziyyətə salır, tabe olmadıqda isə onlara uyuşdurucu maddələr vururmuş. Zamanla qızların ailələri ilə əlaqə saxlaması üçün tədbirlər görülmüş, tez-tez telefon nömrələri dəyişdirilirmiş.

Bir faktı da qeyd edək ki, Adnan Oktar həbs olunandan sonra onun tərəfindən təcavüzə uğradığını iddia edən 35 nəfər polisə şikayət edib. Bu şikayətçilərin 15 nəfəri 11-17 yaş arası olan zaman təcavüzə uğradığını bildirib. Hətta adı gizli saxlanılan 16 yaşlı qız anası tərəfindən gizli şəbəkəyə təhvil verildiyini deyib.

"Hoca"nın şəbəkəsi əsasən bu cür qurulmuşdu: 1. Baş imam - Adnan Oktar; kiçik imamlar - Bahadır Güvən; Dirat Dəvəlioğlu, sıravi üzvlər - qardaşlar, bacılar; "Cariyələr" - şəbəkənin seks kölələri; "motorlar" - xidmətçilər. Şəbəkə daxilində qızlar "Bacılar", "İmam bacıları", "Bacı imamları", kişilər isə "Qardaşlar", "İmam qardaşları", "Qardaş imamları" kimi kateqoriyalara bölünüblər.

**"Şişirdilmiş" "kediciklər"**

"Kedicik" qadınların həm üz, həm də bədən quruluşuna görə bir-birinə bənzəməsi hər zaman müzakirə mövzusu olmuşdu. Onların Adnan Oktarın zövqü ilə estetik əməliyyat keçirdiyi barədə iddialar var idi. Lakin "hoca" "kedicikləri"n əslində təbii gözəl olduğunu, onların estetik əməliyyat keçirdiyi ilə bağlı iddiaların yalan, uydurma olduğunu bildirirdi. Lakin aparılan son əməliyyatlar zamanı sübut olundu ki, "kediciklərin" hamısının almacıq sümüyü qabarıq, dodaqları şişirdilmiş, belləri isə incə olması üçün estetik əməliyyatlar keçiriblər.

**Azərbaycanlıları təhqir edən Adnan Oktarın azərbaycanlı tərəfdarları...**

Məlum olduğu kimi, Azərbaycanda da Adnan Oktar tərəfdarları var. Türkiyə mətbuatının yaydığı məlumata görə, onun azərbaycanlı tərəfdarlarının sayı təxminən 200 nəfərdən çoxdur. Onların zamanında Türkiyədə İbrahim Tuncer və Didem Ürerlə əlaqələri olduğu iddia edilir. Hər zaman təşkilata maddi və qadın dəstəyi verən azərbaycanlı tərəfdarlar Adnan Oktar həbs edildikdən sonra da ona dəstək verməkdən çəkinməyib, sosial şəbəkələrdə çağırışlar ediblər. Bu arada bir faktı da qeyd edək ki, ötən il Adnan Oktarın tərəfdarları sosial şəbəkələrdə video yayaraq, ona olan sevgilərini dilə gətirmişdilər.

Ötən il hətta iddia olunurdu ki, "A9" kanalının tezliklə Bakıda da nümayəndəliyi açılacaq və yayıma başlayacaq. Deyilənə görə, hətta avadanlıqlar da hazırlanıbmış.

İddialara görə, "hoca"ya dəstək verən azərbaycanlılar barəsində hüquq-mühafizə orqanları tərəfindən araşdırmalar başladılıb. Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral mətbuata açıqlamasında bildirmişdi ki, Adnan Oktarın Azrəbaycandakı üzvlərinə qarşı da əməliyyat aparıla bilər. Səfirin sözlərinə görə, hazırda məhkəmə prosesi davam edir, konkret qərar yoxdur: "Araşdırmaların nəticəsindən asılı olaraq bu proses Azərbaycan və digər ölkələrdə də aparılacaq".

Bu arada "A24.az" saytının məlumatına görə, Adnan Oktarın həbsindən sonra Azərbaycanda 54 qadın Türkiyənin Azərbaycandakı səfirinə ərizə yazaraq bildiriblər ki, onları zərərçəkmiş qismində hazırda istintaqı gedən "Adnan Oktar işi"nə cəlb etsinlər. Məlumatda o da bildirilir ki, "hoca"nın Azərbaycandakı şəbəkəsinin kişi üzvləri üçün imam Ramiq Vəliyev, qadın üzvləri üçün imam isə onun həyat yoldaşı Aysel Vəliyeva olub. Qeyd edək ki, adıçəkilən şəxslər tez-tez "A9" kanalında Adnan Oktarın verilişində iştirak ediblər.

Onu da əlavə edək ki, televiziyada "kedicikləri" ilə birgə əxlaqsızlığı yaymaqla məşğul olan Adnan Oktar bir müddət bundan əvvəl azərbaycanlıları da təhqir etmişdi. Belə ki, "hoca" Dağlıq Qarabağ münaqişəsindən danışarkən axmaq ifadələr işlətmişdi.

**İsrail, masson casusu...**

Apardığı verilişlərə görə böyük təpki toplayan Adnan Oktarın İsraillə əlaqələri də ortaya çıxıb. Əslində uzun illərdir ki, onun İsrail agenti olduğu haqda məlumatlar var idi. Bir müddət bundan əvvəl israilli publisist, məşhur sionist Aviqdor Eskin Türkiyəyə gələrkən Adnan Oktarı ziyarət etmiş və maraqlı fikir söyləmişdi: **""Mavi Marmara" böhranından sonra Türkiyə-İsrail münasibətlərini məhz Adnan Oktar bərpa edib... "**

Onun massonluğu təbliğ etməsi də hər kəsə məlum idi.

Məhz onun dəvəti ilə Türkiyənin İstanbul şəhərinə gələn İtaliya Masson Lojasının lideri Gian Franco Pilloni ona "33-cü dərəcəli Masson Diplomu" verib. Beləliklə, özünü "İslam alimi" kimi təqdim edən Adnan Oktar rəsmən masson olub.

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**

# Gənc developerlər "AppLab" sayəsində layihə idarəedilməsinin əsaslarını öyrəniblər



**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti özünün "AppLab" layihəsində iştirak edən gənc developerlər üçün daha bir təlim sessiyası təşkil edib.**

**"Layihənin idarə edilməsi" mövzusunda keçirilmiş bu təlim, layihələrin uğurla idarə edilməsinin əsas prinsipləri ilə yanaşı, keyfiyyət meyarlarının düzgün təyin edilməsi, planlaşdırma metodlarının öyrənilməsi, PERT və Gant cədvəlləri, korporativ qaydaların müəyyən edilməsi və digər maraqlı mövzuları əhatə edib. "Bakcell" şirkətinin "AppLab" proqramının iştirakçılarına layihələrin həyata keçirilməsinin hər bir təşkilatda baş verən biznes proseslərinin ən vacib məqamlarından olması barədə məlumat verilib. Gənc developerlərə bildirilib ki, layihələr öz mürəkkəbliyinə görə fərqlənir və statistikaya əsasən, menecerlərin ümumi iş vaxtının 50%-dən çox olan hissəsi strategiyanın düzgün təşkil edilməsi və layihələrin düzgün idarə edilməsinə sərf olunur. Təlimin sonunda isə iştirakçılara öz yeni biliklərini praktikada tətbiq etmək imkanı verilib.**

**"Bakcell"in "AppLab" mərkəzində yaradılmış mühit çox yaxşı təsir bağışladı. Burada iştirakçılara yeni biliklər, fürsətlər və biznes əlaqələrin əldə edilməsi üçün geniş imkanlar verilir. Bu biznes inkubatoru təkcə iş mühiti deyil, iştirakçılar üçün keyfiyyətli bir məlumat mənbəyi rolunu oynayır və bugünkü kimi vacib mövzularda təlimlərin keçirilməsi onların daxili motivasiyasını artırmaqla yanaşı onların uğurlu olmaq şansını da xeyli artırır", deyə CAC Təlim Mərkəzinin təlimçisi Məmməd Orucov bildirib.**

**"AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının təribi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. "AppLab" layihəsinin iştirakçıları şirkətin "AppLab" Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. "AppLab" Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.**

**İnnovasiya sahəsində lider olan "Bakcell" gənc nəslin nümayəndələrinə inkişaf imkanları, məsləhətlər və hətta innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan dəstəyi göstərməyə hazırdır.**

# Tanınmışlar erməni müğənninin Bakıya gəlişinə etiraz etdilər

## "Vətəndaş olaraq şəhidlərimizdən, şəhid ailələrimizdən, Xocalıdakı vəhşiliyi gözləri ilə görüb, yaşayan və şəhid olan soydaşlarımızdan utanıram"

**İyulun 26-29-u Bakıda "Jara-2018" Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovun təşkilatçılığı ilə baş tutacaq festivalın açılış mərasimində Monatik, Qriqori Leps, Ani Lorak, Loboda, Emin, A'Studio, Dima Bilan, Sergey Lazarev, Qlyuk'oza, Qradusı, Nyuşa, Nastya Kamenskix, Slava, Aleksey Çumakov, Artik & Asti, Black Star, Timati, Yeqor Krid, Mot, Xanna, Mişa Marvin və digər məşhur musiqiçilər iştirak edəcək. İyulun 27-də Leonid Aqutin və Valeriyanın yubiley gecələri keçiriləcək.**




İyulun 28-də "Leninqrad" qrupu çıxış edəcək. 29 iyulda səhnəyə erməni əsilli müğənni Zara Mgoyan çıxacaq. Zaranın Bakıya gəlməsi birmənalı qarşılanmayıb və sosial şəbəkədə tənqid olunub.

Rusiyanın əməkdar artisti olan Zara Paşa qızı Mgoyan 1983-cü ildə Sankt-Peterburqda anadan olub. Atası Paşa Bimassiyeviç Mgoyan, anası Nadi Camalovna Mgoyandır. Əsl adı Zərifə olan Zaranın bir tərəfi yezidi kürdü, bir tərəfi isə ermənidir. O, 1997-ci ildə "Utrennya zvezda" müsabiqəsinin finalçısı olub və "Let Children Laugh" beynəlxalq festivalında "Grand Prix" qazanıb. 1998-ci ildə Omskda keçirilən "Nadejdi Sibir" ("Sibirin ümidləri") Peterburqda təşkil edilən "Deni rojdeniya" ("Ad günü") kimi mahnı yarışmalarında qalib olub. Soçidə təşkil edilən "Nadejdi Evropi" ("Avropa ümidləri") qələbə qazanıb.

2004-cü ilə qədər yezidi inancına sahib olan Zara evlilik üçün xristianlığı qəbul edib. O, Sankt-Peterburq Bələdiyyə sədri Valentina Matvienkonun oğlu Sergey Matvienko ilə evlənib. Ancaq bu nikah 6 ay davam edib.

2008-ci ildə Zara Moskva Bələdiyyə Sağlamlıq Müdirliyinin Əczaçılıq şöbəsinin müdiri Sergey İvanovla evlənib. İvanov Zara üçün həyat yoldaşı və iki uşağını tərk edib.

**"Yeni Müsavat" qəzeti tənqid və etirazları nəzərə alaraq tanınmış media nümayəndələri arasında sorğu keçirib. "Yeni-caq.az" saytının baş redaktoru Aqil Ələsgər deyib:** "Belə elə bir məsəl var: "Millətlər unutduqlarını təkrar yaşayırlar. 1905 və 1918-ci ildə ermənilərin bizə qarşı törətdikləri cinayətləri unutduq, şairlərimiz qardaş oldu, müğənnilərimiz ortaq mahnılar oxudular. Nəticə etibarı ilə Qərbi Azərbaycandan sonra Qarabağı ermənilər işğal etdilər. Bu baxımdan hesab edirəm ki, millət olaraq yaddaşımızın korlanmasına imkan verməməliyik. Yarı erməni, yarı yezidi müğənninin, ondan əvvəl "Jara"ya Filip Kirkorovun gətirilməsi kimi cəhdlər Ermənistanla Azərbaycan arasında sülhə cəmiyyətimizi hazırlamaqdır. Hesab edirəm ki, bu məsələlərin qarşısı alınmalıdır, ictimaiyyət olaraq etiraz etməyik. İnanıram ki, Azərbaycan dövləti də bu məsələlərdə duyarlıdır. Dövlətimizin dəstəyi ilə bu hallar aradan qaldırılacaq".

**Tanınmış jurnalist Əvəz Zeynallı bildirib ki, erməni əsilli müğənninin Bakıya gəlməsinin əleyhinədir:** "Əleyhinəyəm. Təşkilatçılar belə hadisələrə yol verməməlidir. Rədd olsun Zara Myoyan".

**Aparıcı Arzu Ümid etiraz səsini belə ucaldıb:** "Şəxsən mən vətəndaş olaraq şəhidlərimizdən utanıram. Şəhid ailələrimizdən, Xocalıdakı vəhşiliyi gözləri ilə görüb yaşayan, şəhid olan soydaşlarımızdan utanıram, xəcalət çəkirəm. Çünki bir aparıcı olaraq çalışdığım televiziya qurumu olan TRT-də həmkarlarımın faciə ilə bağlı xəbərləri araşdırarkən, montajda necə ağladıqlarının şahidi olmuşam. Cavan qızların necə işgəncələrə məruz qaldığını nə tez unutduq? Unudan "Youtube" kanalını açıb baxsın. Rusiyada yaşayıb, ermənilərlə ağız-ağıza öpüşənlərdə ar qalmayıb. Onların yerinə mən şəhid ailələrindən, əli-ayağı donduğu üçün şikəst qalan qızlarımızdan, körpəsi qarnında doğranan gəlinlərimizdən utanıram. Azərbaycan Respublikasının vətəndaşı olaraq "stop" deyirəm. Sosial şəbəkələrdə də "Stop" haştağı ilə etirazımızı bildiririk".

❑ **Könül İBRAHİM,**
**"Yeni Müsavat"**

# Zərdab sakini icra hakimiyyətinin qarşısında özünü yandırmaq istədi

**Minval.info-nun məlumatına görə, uyulun 17-də saat 10 radələrində Zərdab Rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında Gəlmə kənd sakini Rasim Qəbilov həyətyanı sahəsinə suyun verilməməsinə etiraz əlaməti olaraq özünü yandırmağa cəhd göstərib.**

Bu barədə DİN-dən məlumat verilib. Cəhdin qarşısı ərazidə xidmət aparan Post Patrul Xidmətinin əməkdaşları tərəfindən alınıb.

Onunla izahedici söhbət aparıldıqdan sonra buraxılıb.



# İstirahətə gedən gənclərin üstünə şəlalədən daş düşdü - 3 yaralı

**Qax rayonuna istirahətə gedən 3 nəfər xəsarət alıb. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, dünən saat 12 radələrində rayonun İlisu kəndi ərazisində yüksək dağlıq ərazidən tökülən Ram-Ramay şəlaləsinə istirahətə gedən Cəlilabad rayon sakini, 1990-cı il təvəllüdlü Orxan Eldar oğlu Məstəliyevin üzərinə şəlalədən gələn daş düşüb.**

Nəticədə Orxan Məstəliyev başından, sol çiynindən, kürəyindən və qabırğalarından xəsarət alıb.

O.Məstəliyev yıxılan zaman yanında olan həmyerliləri - 1990-cı il təvəllüdlü Tərlan Məlikəhməd oğlu Ağamalıyev və 1988-ci il təvəllüdlü Mirrəhman Mirələm oğlu Salmanova toxunub. Bu zaman onlar da yıxılaraq xəsarət alıblar.

Hər üç şəxs Qax Mərkəzi Rayon Xəstəxanasına aparılıb. O. Məstəliyevin xəsarətləri ağır olduğundan Bakıdakı xəstəxanalardan birinə göndəriləcək.

T.Ağamalıyev və M.Salmanov lazımi yardım göstərildikdən sonra ambulator müalicə almaq şərti ilə evə buraxılıblar.



# Agentlik qanunsuz heyvan kəsimi fəaliyyətlərini dayandırmaq üçün reydlərə başlayıb

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyi tələblərinə, sanitar-gigiyenik normalara uyğun olmayan heyvan kəsimi məntəqələrinin fəaliyyətini dayandırmaq üçün Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə reydlərə başlayıb.**

Agentlikdən "APA-Economics"ə verilən məlumata görə, "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli sərəncamının icrası ilə əlaqədar Qida Təhlükəsizliyi Agentliyi baytarlıq-sanitariya və gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi ilə məşğul olan şəxslərdən qanunsuz fəaliyyətlərini dayandırmağı tələb edib.

Bildirilib ki, qanunvericiliyin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə bu cür fəaliyyətlərin aradan qaldırılması üçün reydlər davam etdiriləcək və qanunla müəyyən olunmuş qaydada ciddi tədbirlər həyata keçiriləcək.

# Oğlunu universitetə qəbul etdirmək istəyən Könül Kərimova 32 min itirib

## Müğənni dələduzluğun qurbanı olub

**Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Məlahət Məmmədovanın cinayət işi üzrə məhkəmə iclası başlayıb.**

Hakim Fikrət Qəribovun sədrliyi ilə prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məlum olub ki, M.Məmmədova əvvəllər məhkumluq həyatı yaşayıb.

M.Məmmədova deyib ki, 2012-ci ildə dələduzluqda ittiham olunub və Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə şərti cəza alıb.

Proses iyulun 20-də davam etdiriləcək.

Bildirək ki, M.Məmmədova dələduzluqda təqsirli bilinir. O, bir neçə şəxsin etibarından istifadə edərək onları aldadıb.



M.Məmmədovanın bu iş üzrə ümumilikdə 300 minə yaxın pulu dələduzluq yolu ilə ələ keçirdiyi bildirilir.

Zərərçəkmişlərdən biri də Azərbaycanın əməkdar artisti, müğənni Könül Kərimovadır. İttiham aktına əsasən, M.Məmmədova müğənninin oğlu Rəşad Rəhimovu Rusiya universitetlərindən birinə qəbul etdirib, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinə köçürtdürəcəyi vədini verib.

K.Kərimova bu məqsədlə Məmmədovaya ümumilikdə 32 min manat pul verib.

M.Məmmədova Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda) maddəsi ilə ittiham edilir.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 154 (7043) 19 iyul 2018



## Amerikada kloun geyimində gəzənlər

**Amerika polisi ölkənin fərqli ştatlarında sirli şəkildə kloun geyimlərində ortaya çıxan şəxslərin kimliyini araşdırır. Bu barədə lenta.ru saytı xəbər yayıb. Xəbərə görə, ölkə boyunca insanları kloun qiyafəsində qorxutmağa çalışan, kloun akkauntlarından insanlara hədələyici məktublar yollayan şəxslər saxlanılır. Florida ştatının polis şefi Kristofer Nakko deyib ki, belə zarafat etməyin bədəli ağır olacaq: "Qorxmuş insanlar bu situasiyanı həyatlarına təhlükə kimi qəbul edə və ciddi şəkildə müdafiə olunmağa başlaya bilərlər".**

Polisin rəsmi hesablamalarına görə, bu günə qədər Corciya, Alabama və Virciniyada belə zarafatlara görə 12 nəfər həbs olunub. Onlar tinlərdə dayanıb, kloun geyimində insanları qorxutmağa cəhd ediblər. Hətta Pensilvaniyada 16 yaşlı Kristiana Torresin qətlini də "kloun panikası" ilə əlaqələndirirlər. Naməlum kloun kostyumları ilə bağlı xəbərlər ötən ayın sonlarında yayılıb. Müxtəlif şəhərlərdə belə xəbərlər yayılmağa başladı ki, bu cür geyinən insanlar balaca uşaqları aldadaraq meşələrə aparıblar, pul təklif edərək onları yoldan çıxarıblar. Bunu ilk başda uşaqların uydurması adlandırsalar da, sonradan bu olayı böyüklərin də gördüyü ortaya çıxdı və araşdırma başlandı.

## Adam çox işləyirsə... alkoqolik ola bilər

**Alimlərin beynəlxalq araşdırma qrupu alkoqol istifadəsi və iş saatının uzunluğu arasında əlaqəni müəyyən etmək üçün tarixin ən böyük araşdırmasını aparıb. Problem üzrə 61 tədqiqatda 14 ölkədən 330 min nəfər iştirak edib. Tədqiqatlar normadan çox işləyən adamların alkoqola daha meylli olduğu faktını ortaya çıxarıb. Çünki əlavə iş insanda depressiya, stress, yuxu ilə bağlı problem yaradır. Alkoqol isə belə mənfi effektlərdən uzaqlaşmağa kömək edir.**



Avropa Birliyində standart iş müddəti həftədə 40 saatdır. Əgər işçinin norması 48 saata çatırsa, bu içilən spirtli içkilərin miqdarını 11% artırır. 49 saatdan yuxarı 13% artım müşahidə olunur. Depressiya və yorğunluq nəticəsində yaranan içki içmək istəyi kişilər üçün daha xarakterikdir, nəinki qadınlar. Araşdırma göstərir ki, bu, coğrafiyadan, insanların iqtisadi, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eynidir.

## Ayaqqabı dabanı sizin xarakterinizi ələ verir

**Hündürdaban ayaqqabıda dabanların kənara çıxması pis görüntü yaranmasına səbəb olur. Amma geyindiyiniz ayaqqabının dabanlarının hansı istiqamətdə əyilməsi sizin xarakterinizi təyin edə bilər. Əgər ayaqqabınızın dabanları içərisinə doğru əyilirsə və siz kişisinizsə, bu sizin həyatda qərar qəbul edə bilməyən kişi olduğunuzu bildirir. Əgər dabanlarınız ayaqqabının içərisinə doğru əyilirsə və siz qadınsınızsa o zaman sizin yaxşı xarakteriniz var.**

Ayaqqabının dabanlarının xaricə-arxaya doğru əyilib çıxması sizin köməksiz biri olduğunuzu bildirir. Əgər ayaqqabının dabanı xaricə yanlara doğru əyilirsə, bu, ayaqqabı sahibinin diqqətsiz və dalğın xarakterli olduğunun göstəricisidir.

Kişinin geyindiyi ayaqqabının dabanı hər iki tərəfdən əyilmişsə, bu onun sahibinin dostcanlı olduğunu bildirir. Əgər qadın ayaqqabısı hər iki tərəfdən əyilmişsə, o zaman, deməli, həmin qadın ən yaxşı anadır. Dabanı çox sıxılmış ayaqqabı sahibinin yastıayaq olmasını göstərir. Dabanı sürtülməmiş ayaqqabı sahibinin tez-tez ayaqqabı dəyişdirdiyini bildirir.



## Kokainləri oğurlandı, polisə şikayət etdi

**Böyük Britaniyada 23 yaşlı kişini narkotik saxlamaq və yaymağa görə 2 il azadlıqdan məhrum ediblər. Bu barədə lenta.ru saytı express.co.uk-a istinadən xəbər verib. Xəbərdə bildirilir ki, hər şey Daniel Barkerin öz təşəbbüsü ilə baş verib. Daniel polisə müraciət edərək, kokainlərinin oğurlanmasından şikayətlənib. Nəşrin xəbərinə görə, ötən ilin iyununda Karlayl şəhərinin parklarından birində iki nəfər Danielə hücum edərək, onu qarət ediblər. Kişi isə polisə müraciətində deyib ki, həmin iki nəfər onlara satmaq istədiyi kokaini oğurlayıb: "Britaniyalı baş vermiş qarətin detallarını xatırlaya bilməyib. Buna səbəb isə onun sərxoş vəziyyətdə olması idi", - bunu isə prokuror Jerar Rocerson açıqlayıb.**

Barker polisə ifadəsində onu da deyib ki, üstündə və evində xeyli narkotik var. Polislər onun çantasında dəyəri 88 min funt sterlinq olan üç qutu kokain aşkarlayıblar. Kişi dərhal həbs olunub. Bundan başqa, onu 200 saatlıq ictimai işə cəlb ediblər.

## Qoroskop




**QOÇ** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma belə bir təqvimdə hər şeydən əvvəl istirahətinizi təmin etməlisiniz, uzaq yol getməyin.

**BUĞA** - Hansısa uğursuzluq haqqında düşünməyin. Çünki iştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli görüşlər, maliyyə uğurları da yolunuzu gözləyir.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayın. Çünki ətrafınızda sizi aldadanlar artıb. Ciddi məbləğdə gəliriniz gözlənilməsə də, gün boyu büdcəniz boş qalmayacaq.

**XƏRÇƏNG** - Sakit bir gün yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Səhv və günahlarınızı etiraf etməyi bacarın. Burada qəbahət yoxdur.

**ŞİR** - Saat 13-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, heç bir narahatçılığınız olmayacaq. Ulduzlar təcrübəli insanların məsləhətlərindən yararlanmağı tövsiyə edir. Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın.

**QIZ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - himayədarınız olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**TƏRƏZİ** - Səhhətinizi qoruya bilsəniz, gün boyu heç bir çətinliklə rastlaşmayacaqsınız. Ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırın. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**ƏQRƏB** - Gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldin. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin.

**OXATAN** - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**OĞLAQ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamalısınız. Hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Hirsli başda ağlın olmamasını da unutmayın.

**SUTÖKƏN** - Yalnız saat 12-14 aralığı gərginlik görünür. Həmin vaxt maksimum ehtiyatlı olun. Qalan zamanda isə çox şey ürəyinizcə olacaq. Hətta perspektivli təkliflər alacağınız da qaçılmazdır.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çoxdur. Buna baxmayaraq, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Çətinlik çəksəniz, məsləhətləşmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Rəfiqəsinin burnunu qoparıb yedi



**ABŞ-ın Teksas ştatı qorxunc bir hadisəyə şahidlik edib. 41 yaşındakı Cesika Kolins 3 rəfiqəsi ilə bərabər bir bara gedib. Burada içki içən 4 qadın gecənin davam etməsi üçün qrupdakı 28 yaşındakı bir qadının evinə gedib. Burada ev sahibi olan qadın içkinin dozasını artırdığı üçün Kolinsdən evi tərk etməsini tələb edib. Düşdüyü bu vəziyyətdən əsəbləşən Kolins qadının burnunu dişləyib qoparıb və udub. Polis tərəfindən saxlanan Kolinsə 1000 dollar kəfalət cəzası müəyyənləşdirilib. Qadın cəzanı ödəyəndən sonra azadlığa buraxılıb.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100